

## Laçından çıxarılan ermənilər vəhşiliklərini davam etdirir

*Avqustun sonuna qədər Laçın şəhərini, Zabux və Sus kəndlərini tərk etməli olan, Azərbaycan ərazisində qeyri-qanuni məskunlaşmış ermənilər evləri yandırmağa, dağıtmağa, meşələrə od vurmağa davam edir.*

Səh.3


# UNİKAL

№30 (2115) 19 avqust 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Ziya Məmmədovun adı növbəti beynəlxalq qalmaqalda!




Səh.2

## Kəmaləddin Heydərovun son akkordları...

## ABŞ-ın keçmiş prezidenti Azərbaycanın sabiq nəqliyyat nazirini niyə məhkəməyə verir?

*Yola salmaqda olduğumuz həftə məlumat yayıldı ki, ABŞ-ın əmlak inşaatı sahəsində dünya liderlərindən sayılan "The Trump Organization" şirkətinin vitse-prezidenti, ABŞ-nın eks prezidenti Donald Trampın qızı İvanka Tramp keçmiş nəqliyyat naziri Ziya Məmmədova məxsus olan "Qarant Holdinq" şirkətini Beynəlxalq Arbitraj məhkəməsinə verir.*

*Buna səbəb Donald Trampın adını daşıyan "Trump International Hotel & Tower Baku" adlı binanın tikintisinin başa çatmasına baxmayaraq, hələ də açılışın baş tutmamasıdır.*

Səh.5

## "Bahalaşma xəbərdarlığı inhisarçı-fürsətçilərin növbəti oyunudur"



*Son günlər unun və çörəyin qiymətinin artması ilə bağlı fikirlər səsləndirilir. Artıq hökumət nümayəndələri də qarşıdakı dövrdə böhranın olacağını etiraf edirlər. Bununla da sanki insanları bəribaşdan bahalaşmaya hazırlaşdırırlar. Təkamül Partiyasının sədri, iqtisadçı alim Teyyub Əliyevlə də söhbətimiz...*

Səh.4

## DSX rəisi işğaldan azad olunmuş dövlət sərhədlərimizdən danışdı



*"Qəhrəman Azərbaycan sərhədçisi - uğrunda qan tökdüyü və şəhidlər verdiyi torpaqlarımızın azad olunmasında iştirakından və Azərbaycan-Ermənistan dövlət sərhədində üçrəngli dövlət bayrağımız altında dövlətin maraqlarını qorumaqdan böyük şərəf və qürur duyur!"*

Səh.6

## Meşə yanğınlarının baş vermə səbəbi nədir?



*Azərbaycanda meşə yanğınları güclənib. Quba və Şabran rayonlarının dağlıq ərazilərindəki meşə sahəsində yanğın başlayıb. Yanğın Qalaaltı hotelinə qədər çatıb. Baş verən yanğın hadisəsi təhlükənin miqyasının günü-gündən artdığından xəbər verir. Bəs görəsən meşə yanğınlarının əsas səbəbi nədir? Yanğın üzrə ekspert Elmar Nuriyev...*

Səh.11

# Mina 50 yaşlı haciyə ərə gedib? - Müğənni hər şeyi açıqladı



***Müğənni Mina Hüseyn ailə həyatı qurduqdan sonra ilk dəfə sosial şəbəkədə paylaşım edib.***

İfaçı həyat yoldaşı ilə birgə çəkilmiş fotolarını "İnstagram" hesabında paylaşıb. Minanın paylaşımından daha çox həmin şəkillərdən birinin altına yazdığı şərh maraq yaradıb.

Minanın şəkillərdə həyat yoldaşının üzünü gizlətməsi diqqət çəkib.

Xatırladaq ki, M. Hüseyn bir neçə ay öncə nikahından foto paylaşaraq ərə getdiyi xəbərini vermişdi. Bundan sonra müğənni "Instagram" səhifəsindəki bütün fotolarını silmişdi.

# "40 yaşında ailə qurmağı düşünürəm" - Zümrüd



***Aparıcı Zümrüd Bədəlova sosial media hesabında izləyicilərinin suallarını cavablandırıb. "Unikal" big.az-a istinadən xəbər verir ki, o, maraqlı cavablarıyla diqqət çəkib.***

Aparıcının "İnstagram" səhifəsinin "Hekayələr" bölməsində paylaşdığı bir neçə cavablarını təqdim edirik:

***- Həyatınızın ən gözəl günü hansıdır ki, o günü unuda bilmirsiniz?***

-Bütün özəl anlarım qızımla bağlıdır. Onun dünyaya gəldiyi gün yaşadığım qəribə hissi heç vaxt unutmaram.

***- Oğlun olsa, adını nə qoyardın?***

- Oğlumun olmağını nədənsə istəməmişəm. Bəsimdir.

***- Əvvəlki Zümrüd üçün darıxmışam. Son vaxtlar üzünüzdə etdikləriniz sizi çox dəyişib.***

- Axı mən qlobal bir dəyişim etməmişəm. İndi qadınların iynə ilə, gel ilə etdiklərini mən üzümə əlavə qatqı vurmamaq üçün əməliyyatla etmişəm və halımı da çox sevirəm.

***- Həyatda dəlicəsinə sevmisiniz?***

- Həyatda ən gənc yaşlarında sevirsən və o sənin ilk və son məhəbbətin olur.

***- Bu cür gözəl xanımsınız. Ailə həyatı qurmağı düşünürsünüz?***

- Belə suallar niyə bu qədər maraqlıdır axı? Bəli. Yaşa dolduqca düşünürəm. Hətta 40 yaşında mənə ruhuma uyğun təklif olsa, ailə qurmağı düşünürəm.



# Brilliant Dadaşovanın oğlundan etiraf

***Xalq artisti Brilliant Dadaşovanın idmançı oğlu Cahad açıqlaması ilə gündəmə səs salıb.***

Sənətçinin övladı sosial şəbəkə hesabında izləyicilərdən gələn suallara verdiyi cavabı ilə diqqət çəkib. İzləyicisinin "Siz porno filmlərə çəkilərsiz?" sualına Cahad cavabı ilə təəccübləndirib.

"Mənə də porno filmlərdə çəkilmək təklifi gəlmişdi. Hər saata 50 avro təklif edirdilər. Lakin sonra yadıma düşdü ki, anam (Xalq artisti Brilliant Dadaşova - red.) vətənə geri qayıtmağıma icazə verməzdi" - deyə Cahad bildirib.

Qeyd edək ki, Cahad daha əvvəlki sosial şəbəkə hesabında paylaşdığı postda "Mənim komendant saatı və karantin qaydalarını pozduğuma görə 3 min manat cəriməm var" sözlərini yazmışdı.

# Elnarə makiyajsız fotosu ilə gündəmə gəldi



***Müğənni Elnarə Xəlilova makiyajsız fotosunu yayımlayıb.***

Sənətçi sərhədçilərin peşə bayramı münasibətilə təbrik yazıb. O, paylaşımında "Sizi peşə bayramınız münasibətilə ürəkdən təbrik edirəm. Sizə gördüyünüz bütün işlərdə uğurlar arzu edir, möhkəm can sağlığı diləyirəm. Vətən sərhəddən başlayır. Mən fəxr edirəm ki, sərhədçiyəm" sözlərini yazıb.

İfaçının paylaşımında diqqət çəkən isə onun makiyajsız halı olub. İzləyicilər Elnarənin bu addımını "cəsarət" adlandırıblar.

# "Yaxamdan əl çəkin, icazə verin yaşayım" - Corc Qafarov



***"İnsanlara qarışmağım, cəmiyyət içinə çıxmağım normal insanlardan fərqli olaraq çox gec olub. Cəmiyyət içinə çıxdım, amma sıradan bir insan kimi yox, daha çətin məsuliyyət daşıyaraq aktyor kimi".***

"Unikal" xəbər verir ki, bu sözləri aktyor Corc Qafarov sosial şəbəkə hesabında yazıb.

Aktyor ünvanına yazılan tənqidlərə reaksiya verib: "Çox kiçik və çox böyük səhvlərim ola bilər. Olub! Amma bu o demək deyil ki, mən bu səhvlərdən nəticə çıxartmıram. Sadəcə mənim formalaşmağımda cəmiyyətin payı az olmayıb. Bir insan kimi ətraf mənə çox güclü təsir və idarə edə bilir. Amma aktyor kimi mənə təsir etmək mümkünsüzdür. Yəni mən Corc olaraq qalmaq istəyirəm səhvlərimlə, düzlərimlə. Çox xahiş edirəm, artıq dərəcədə xahiş edirəm, mənə təsir etməyin. Sadəcə mənim yaxamdan əl çəkin! İcazə verin, nəfəs alım, yaşayım".

Qeyd edək ki, Corc qardaşı Jerarla birlikdə kimsəsiz uşaq evində böyüyüb. Onu və qardaşını müğənni Roza Zərgərli himayəsinə götürüb.



## SOCAR prezidenti “Fortescue Metals Group”un sədri və təsisçisi ilə görüşdü

***Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf “Fortescue Metals Group”un sədri və təsisçisi Endrü Forest ilə görüşüb.***

”Unikal” xəbər verir ki, bu barədə SOCAR məlumat yayıb. Məlumata görə, görüşdə E.Forest “Fortescue Metals Group”un törəmə müəssisəsi olan “Fortescue Future Industries” (FFI) şirkətinin bərpaolunan enerji, yaşıl hidrogen, ammonyak və sintetik metan kimi dayanıqlı yanacaq sahələrindəki fəaliyyəti və əldə etdiyi nailiyyətlərdən bəhs edib, sözügedən şirkətin Azərbaycanda da bu istiqamətdə fəaliyyət göstərməkdə maraqlı olduğunu bildirib.

R.Nəcəf SOCAR-ın dekarbonizasiya və bərpaolunan enerji sahələrindəki hədəfləri, həmçinin bu istiqamətdə atılan addımlar barədə məlumat verib.

Söhbət zamanı tərəflər arasında mövcud neft-qaz və neft-kimya əməliyyatlarının dekarbonizasiyası, Azərbaycanda “yaşıl enerji” əməliyyatlarının genişləndirilməsi məqsədilə FFI-nin SOCAR-ın mövcud obyektlərindən və infrastrukturundan istifadəsi, həmçinin digər istiqamətlərdə potensial əməkdaşlıq imkanları müzakirə edilib.

## "Qarabağ"ın oyununa baha qiymətə bilet satanlar saxlanıldı

***UEFA Çempionlar Liqasının pley-off mərhələsinin oyunları çərçivəsində qanunsuz bilet satışını həyata keçirən şəxslərə qarşı daxil olan məlumatlar əsasında polis əməkdaşları tərəfindən daha 22 nəfər barəsində tədbirlər görülüb.***



DİN Mətbuat Xidmətindən ”Unikal”a verilən məlumata görə, keçirilən tədbirlərlə müxtəlif vasitə və üsullarla əldə etdikləri biletləri dəyərindən dəfələrlə baha qiymətdən satmağa çalışan şəxslərdən müxtəlif şəxslərin adına qeydiyyatdan keçirilən 150 bilet aşkarlanaraq aidiyyat üzrə təhvil verilib.

Həmin şəxslərin hər biri barəsində inzibati qanunvericiliyə uyğun olaraq, protokol tərtib olunub.

# Kəmaləddin Heydərovun son akkordları...

## "Video qalmaqalı"nın ortaya çıxardığı həqiqət: fövqəladə hallar naziri rəhbəri olduğu qurumda idarəetməni tamamilə itirib

***Hələ iki il öncə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Baş Prokurorluğun Mətbuat xidmətlərinin Dövlət Sərhəd Xidmətində həyata keçirilən əməliyyatla bağlı yaydığı birgə məlumatda Fövqəlafə Hallar Nazirliyinin sabiq vəzifəli şəxslərinin həbsi barədə bildirilirdi. Qeyd olunurdu ki, bu nazirliyin Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin Bakı və Abşeron regional şöbəsinin sabiq inspektoru Babayev Rəhman Rəşid oğlu həmin vəzifədə işlədiyi müddətdə balıqçılardan rüşvət qismində pul alaraq qeyd olunan şöbənin müdiri Abdullayev Abdulla Əbülfəz oğluna çatdırıb. Odur ki, hər iki şəxs həbs olunmuşdular.***

Ötən ilin bu vaxtları isə Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşı barədə yayılan rəsmi açıqlamada onun dələduzluqda ittiham edildiyi bildirilirdi. Bu barədə Baş Prokurorluq məlumat yaymışdı. Qeyd edilirdi ki, bununla bağlı Bərdə Rayon Prokurorluğuna daxil olmuş vətəndaş müraciəti əsasında araşdırma aparılıb və Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Sitat: ”Quliyev Elvin Afiq oğlu FHN-in Mühafizə Xidmətinin Neftayırma müəssisələri üzrə Yanğından Mühafizə dəstəsinin inspektoru vəzifəsində işləyərkən tanışı Fikrət Hüseynovun övladı Rüfət Hüseynovu həmin Xidmətdə yanğınsöndürən vəzifəsinə təyin etdirəcəyi barədə vəd verib. 2021-ci ilin fevralın 15-də Fikrət Hüseynovdan 10 min manat məbləğində pulu alaraq öz qulluq mövqeyindən istifadə etməklə xeyli miqdarda ziyan vurmaqla dələduzluq edib, bu əməli ilə də sonuncunu rüşvət verməyə təhrik edib”. Nəticədə E.Quliyev Cinayət Məcəlləsinin 178.2.3 (dələduzluq şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 178.2.4 (dələduzluq xeyli miqdarda ziyan vurmaqla törədildikdə) və 32.4,312.1-ci (rüşvət verməyə təhrik etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində həbs qətimkan tədbiri seçilmişdi.

Bunları niyə xatırladırıq? Əslində son illərdə Fövqəladə Hallar Nazirliyi ilə bağlı qalmaqallı xəbərlər intensivləşmişdi, bu qurumun adı daha çox neqativ məzmunlu xəbərlərdə keçməyə başlamışdı. Yola salmaq üzrə olduğumuz həftəyə damğa vuran ”video qalmaqalı” isə pik nöqtə sayıla bilər: aydın görünür ki, başı daha çox özünün ailə biznesinin çiçəklənməsinə qarışan ”stajlı nazir” Kəmaləddin Heydərov rəhbərlik etdiyi qurumda idarəetməni itirib, özü də tamamilə itirib!




Heydərov FHN-ə bu nazirliyin yarandığı gündən - 2005-ci ilin dekabrından rəhbərlik edir. Elə həmin tarixdən də o, ”fövqəlnazir” statusuna sahibləndi. FHN-ə rəsmi rəhbərliklə yanaşı, bir çox nazirlikləri və komitələri də qeyri-rəsmi nəzarətdə saxlayaraq geniş təsir imkanlarına yiyələnən Kəmaləddin müəllim aradan keçən müddətdə hökumət daxilində özünə rəqib kimi gördüyü bir çox yüksək çinli məmurun ”zərərsizləşdirilməsinə” nail oldu. Bununla yanaşı, öz ”biznes imperiyasını” analoqsuz şəkildə genişləndirdi və gücləndirdi. Sözügedən proses davamlı ola bilməzdi, necə ki, olmadı da! Düzdür, son illərdə Heydərov əvvəlki mövqelərindən əhəmiyyətli şəkildə məhrum olub və onun karyera baxımından ”qüruba” yuvarlandığı aydın görünürdü. Axır vaxtlar baş verənlər isə fövqəladə hallar naziri üçün, ümumiyyətlə, yaxşı heç nə vəd etmir.

Təzəlikcə uzun müddət Heydərovun ”qara kassa”sı funksiyasını yerinə yetirmiş, gömrük sistemində faktiki şəkildə ”ağalıq” yaradaraq külli miqdarda vergi və gömrük ödəməsini dövlət büdcəsindən yayındırmış ”Broker MMC”-nin rəhbəri Əbülfəz Məlikovun həbsi istər mediada, istərsə də cəmiyyətdə FHN rəhbəri üçün çətin günlərin anonsu kimi qiymətləndirilirdi. Bu həbsin ardınca ”video qalmqalı”nın ortaya çıxması isə belə bir qiymətləndirmənin haqsız olmadığı ehtimalını qüvvətləndirir. Əcaib vəziyyətdir: məlum olur ki, Heydərovun nazirliyində biriləri dövlət binasını və uniformanı öz əxlaqsız əməlləri üçün vasitəyə çeviriblər! Biz hansısa nazirliyin kabinetlərində rüşvət alınmasını, büdcə vəsaitlərinin talan edilməsini görmüşdük, lakin bu qədərini ağlımıza da gətirə bilməzdik. Baş verənlər FHN-də idarəetmə boşluğunun bariz isbatıdır. Və hər hansı Avropa ölkəsindəki istənilən bir nazirlikdə belə bir qalmaqal (həm də biabırçı qalmaqal!) yaşansaydı, o nazirliyin rəhbəri anındaca çıxıb ictimaiyyətdən üzr istəyər, sonra da, ən azından, mənəvi məsuliyyətini hiss edərək şələ-küləsini yığışdırıb vəzifədən gedərdi. Kəmaləddin müəllim isə susqundur, üstəlik, ətrafındakıların ağzı ilə cəmiyyəti özünün heç bir məsuliyyət daşımadığına inandırmağa çalışır. Bir daha aydın olur ki, kresloya hədsiz bağlılıq köhnə məmurlar üçün hər şeydən - etik dəyərlərdən də, hüquq normalarından da, dövlət və xalq maraqlarından da öndə gəlir...

Bu da bir daha aydın olur ki, hələ də özünün ”toxunulmazlıq statusu”nun olduğuna inanan yüksək vəzifə sahibləri mövcuddur. Onlar rəhbərlik elədikləri qurumların qarşısına qoyulan vəzifələrin layiqli icrası əvəzinə şəxsi mənafelərdən çıxış etməyi üstün tuturlar. Nəticədə bu qurumlarda ”çürümə” başlayır. Kiminin gözünü pul ehtirası örtür, kiminin gözünü də eyş-işrət, əyləncə həvəsi... Dövlətə və xalqa xidmət arxa plana keçir, ”özünəxidmət” başlıca iş prinsipinə çevrilir. Heydərovun nazirliyindən gələn qalmaqallı xəbərlər məhz bu sadə həqiqətin ifadəsidir. Nəhəng bir nazirlik üçün bu gün arzuedilməz hadisələr adiləşibsə, çıxış yolu aydındır - həmin nazirliyə yeni ruh, yeni nəfəs lazımdır. Daha xoşagəlməz qalmaqallar yaşanmadan!

Hərçənd, məlum və rüsvayçı ”video qalmaqaldan” sonrası varmı, onu da qoy oxucularımız desinlər...

***Sənan Mirzə***

# Gənclər və İdman Nazirliyində həbslər ola bilər

## Keçmiş rəhbərliyin yeyintiləri ortaya çıxdı; bundan sonra nə baş verəcək?

***Hesablama Palatasının Gənclər və İdman Nazirliyində (AGİN) apardığı auditin nəticələri açıqlandı. Bu barədə yayımlanan hesabatdan belə aydın oldu ki, mərhum Azad Rəhimovun rəhbərlik etdiyi dövrdə AGİN-də çoxsaylı yeyintilərə yol verildiyi barədə mətbuatda və cəmiyyət arasında dolaşan iddialar tamamilə doğru imiş. Üstəlik, bu yeyintilərin miqyası da yazılıb-pozulanlardan, söylənilənlərdən xeyli genişdir.***

İndi gəlin Gənclər və İdman Nazirliyi və tabeliyində olan qurumlar (seçmə qaydada) tərəfindən dövlət vəsaitinin və digər dövlət qurumlarının idarə olunmasının və istifadəsinin auditinə dair Hesablama Palatasının audior hesabatındakı başlıca məqamlara göz ataq. Məsələn, hesabatdan məlum olur ki...

### ...maliyyə vəsaitlərinin idarə olunması düzgün təşkil edilməyib...

Üstəlik, xərcləmələr üzərində nəzarət fəaliyyətinin qurulmaması bu sahədə bir sıra nöqsanlara yol açıb. Faktiki olaraq 2020-ci ilin may ayında sökülən tikililərə görə Nazirlik tərəfindən ümumilikdə 26,9 min manat sığorta haqqı ödənilib, 2021-ci ilin yekunlarına görə ən yüksək nəticə göstərmiş idmançılar və onların məşqçilərinin mükafatlandırılması ilə bağlı ödənilmiş 464 min manat məbləğində vəsaitin icrası təmin edilməyərək hesabda saxlanılıb.

Xarici valyuta kurslarının 53 halda düzgün tətbiq edilməməsi hesabına 79,4 min manat əlavə büdcə vəsaitinin xərclənməsinə yol verilib. O cümlədən Azərbaycan Yelkənli İdman Federasiyasının "AGBank" ASC-də olan hesablaşma hesabına 20 aprel 2020-ci il tarixində 100 min manat məbləğində ödənilmiş vəsait həmin bankın 27 aprel 2020-ci ildə bağlanması səbəbindən hesabda qalıb.

Hesabatdakı kifayət qədər ilginc məqamlardan biri isə odur ki...

### ...bəzi idman federasiyalarına qanunsuz pul ayrılıb...

Daha da dəqiqləşdirsək, bir sıra idman federasiyaları, eləcə də idman məktəbi tərəfindən yığma komandanın üzvlərinin beynəlxalq yarışlara və Olimpiyada oyunlarına hazırlanması, həmçinin federasiyanın maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə maliyyə köməkliyinin göstərilməsi ilə bağlı etdiyi müraciətlər əsasında təsdiq edilmiş büdcəsində nəzərdə tutulmayıb. Lakin Nazirlik tərəfindən təyinat dəyişikliyi edilərək 5 federasiya və 1 idman məktəbi üzrə ayrılmış xərclər smetasında nəzərdə tutulmayan 435,1 min manat vəsaitin ayrılması təmin edilib. Federasiyalara və idman məktəbləri ilə bağlanmış müqavilələr üzrə öhdəliklərin icrasına, həmçinin hesabatlılığa nəzarətin təmin edilməməsi ayrılmış vəsaitlər üzrə məqsəd-nəticə uyğunluğunun ədalətli müəyyənləşdirilməsi imkanlarını məhdudlaşdırıb. Müxtəlif beynəlxalq yarışlara milli komandaların lazımi səviyyədə hazırlığına şərait yaradılması məqsədilə təlim-məşq toplanışlarının təşkil olunması, eləcə də bir neçə yarışda iştirakla bağlı vəsaitlərin icrası zamanı milli yığmanın üzvü olmayan idmançının siyahıya daxil edilməsi, müraciətdə göstərilmiş müddətlərdən əlavə günlərin əhatə olunması, ezamiyyət günlərinin düzgün nəzərə alınmaması kimi nöqsanlar hesabına ümumilikdə 202,8 min manat artıq vəsait ödənilib.

Seçmə qaydada Respublika Olimpiya Mərkəzi üzrə toplanmış audit sübutları icarəyə verilmiş əmlak üzrə 32,8 min manat haqqın toplanılmadığını, dövlət əmlakının icarəyə verilməsi ilə bağlı hüquqi aktlarda əks olunmuş tələblərin reallaşdırılmaması və icarə haqlarının aşağı səviyyədə müəyyənləşdirilməsi ilə bu istiqamətdə əlavə gəlirlərin əldə edilməsi imkanlarından istifadə olunmadığını deməyə əsas verir.

AGİN-dəki ciddi nöqsanlardan biri isə diqqəti xüsusi cəlb edir. Belə məlum olur ki...

### ...məşqçilərə və idmançılara ödənilməli olan mükafatlar kimlərinsə cibinə gedib...

Belə ki, yüksək nəticələr göstərmiş idmançıların mükafatlandırılması məqsədilə vəsaitlərin istifadəsi zamanı komanda hesabı ilə yer tutan, eləcə də qeyri-olimpiya proqramları üzrə dünya və Avropa çempionatları, həmçinin Kubok yarışlarında yüksək nəticələr göstərmiş idmançılar və onların məşqçilərinin mükafatlandırılması nəticəsində 125,2 min manat məbləğində vəsaitin təyinatı dəyişdirilib.




Layihələrin və tədbirlərin həyata keçirilməsinə hazırlıq prosesində tələblərin düzgün müəyyənləşdirilməməsi, eləcə də mövcud potensialların dəyərləndirilməməsi səbəbindən daha baha qiymətlərin tətbiq olunması vəsaitlərin artıq istifadəsi ilə nəticələnib. Bir neçə halda düzgün iddiaçının seçilməməsi layihələr üzrə öhdəliklərin üçüncü tərəfə ötürülməsinə səbəb olub. Qeyd edilənlər bu istiqamətdə 310 min manat artıq vəsaitin istifadəsinə yol açıb.

Bir sözlə, ...

### ...pulların düzgün xərclənməməsi nüfuzlu yarışlarda uğursuzluğa gətirib çıxarıb...

Bir qədər də konkretləşdirsək, Yay Olimpiya və Paraolimpiya oyunları ilə bağlı ayrılmış vəsaitlərin bəzi hallarda təyinatının dəyişdirilməsi, eləcə də fərqli federasiyalara ayrılmış vəsaitin digər istiqamətlərə yönəldilməsi dövlət vəsaitlərinin nəticəliliyinin qiymətləndirilməsinə şərait yaratmamaqla bərabər son nəticələrə də təsir göstərib. Hüquqi aktların tələblərinə riayət edilməməsi və iştirak sayının nəzərə alınmaması artıq vəsait ödənişinə şərait yaradıb. İcra olunmamış 11 milyon manat məbləğində vəsaitin 6 milyon 46,3 min manatı olimpiya növləri üzrə federasiyalara, 100 min manatı isə Paraolimpiya oyunları ilə bağlı istiqamətlərə yönəldilib. Bu, cəmi Olimpiya oyunları ilə bağlı xərclərin 56 faizinə bərabər olub. Milli Olimpiya Komitəsi tərəfindən istifadə edilmiş 901,4 min manat da daxil olmaqla, ümumi vəsaitin 64,2 faizi birbaşa Olimpiya oyunlarının keçirilməsi ilə bağlı olub. Digər hissə - 35,8 faizi isə bəzi hallarda birbaşa əlaqəsi olmayan, bəzi hallarda isə təyinatdan kənar istiqamətlərə yönəldilib. Qeyd edilənlər Olimpiya oyunları ilə bağlı müxtəlif federasiyalara ayrılmış vəsait üzrə 393,7 min manat artıq məbləğin icra edildiyini göstərir.

Audit zamanı o da üzə çıxıb ki, bəzi hallarda Nazirlik tərəfindən ictimai birliklər arasında qrant müqavilələrinin mövzusu olan məsələlər satınalma müqavilələri vasitəsi ilə icra edilib, o cümlədən ictimai birliklərlə də belə müqavilələr bağlanılıb.

Həmçinin ehtimal olunan qiymətlərin hesablanmaması bəzi hallarda malların, işlərin və xidmətlərin baha qiymətə alınmasına səbəb olub. İddiaçılarla bağlı meyarların göstərilməməsi bir sıra hallarda müqavilələrin icrası prosesində müqavilə üzrə tərəflərin dəyişməsi ilə nəticələnib.

Bütün bunlardan sonra sual yaranır:

### Kimlər cəzalandırılacaq?

Öncə onu qeyd edək ki, hesabatın sonunda qeyd olunan nöqsanların aradan qaldırılması ilə yanaşı nöqsanlara yol vermiş vəzifəli şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunması istiqamətində zəruri tədbirlər həyata keçirilməsi barədə tövsiyə yer alır. Buradan belə görünür ki, qarşıdakı günlərdə biz AGİN-dəki maliyyə pozuntuları ilə bağlı cinayət işinin açılmasının şahidi ola bilərik. Mümkündür ki, keçmiş rəhbərliyin dövründən çalışan bəzi vəzifəli şəxslər bu cinayət işi çərçivəsində hüquqi məsuliyyətə cəlb olunsun. Nazirlikdə hələ də post tutan belə şəxslərin işdən azad edilməsi ilə yanaşı həbsi də istisna deyil.

Digər tərəfdən isə xüsusilə iki nəfərin - sabiq müavinlər İntiqam Babayevlə İsmayıl İsmayılovu da qarşıda çətin günlərin gözlədiyini söyləmək olar. Hələ ötən il onlar vəzifədən azad edilərkən barələrində ciddi korrupsiya iddialarının olduğu, postlarından bu səbəblə kənarlaşdırıldıqları deyilirdi. Elə "Unikal" olaraq biz də yazmışdıq ki, sözügedən iddialar təsdiqlənərsə, hər iki eks-müavin barədə hüquqi ölçünün götürülməsi realdır.

Hesablama Palatasının yoxlamaları təsdiqlədi ki, mərhum Azad Rəhimovun zamanında, həqiqətən də, kifayət qədər ciddi qanunsuzluqlara, maliyyə pozuntularına yol verilib. Bu isə Babayev və İsmayılovla bağlı proqnozların reallaşma ehtimalını yüksəldir...

***Toğrul Əliyev***



# General "Qalaaltı"dakı yanğınla bağlı təcili müşavirə keçirdi

***Şabran rayonunda yerləşən "Qalaaltı" İstirahət Mərkəzinin yaxınlığındakı meşəlik ərazidə baş vermiş yanğın söndürülüb.***

"Unikal" xəbər verir ki, bu barədə FHN məlumat yayıb.

Hazırda havanın isti və küləkli olması yanğın ocaqlarının tam söndürülməsinə mane olsa da, FHN-in yanğınsöndürmə qüvvələri tərəfindən mürəkkəb relyefli dağlıq, o cümlədən çətin keçilən və sıldırımlı qayalıq ərazidən xüsusi alpinist vasitə və ləvazimatlardan istifadə olunmaqla, Çıraqqala qalasından "Qalaaltı" İstirahət Mərkəzinə doğru yuxarıdan aşağı istiqamətdə soyutma işləri aparılır.

Bu gün səhər saatlarında fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev baş vermiş yanğınlarla bağlı "Qalaaltı" İstirahət Mərkəzində operativ əməliyyat müşavirəsi keçirib. Tədbirdə FHN-in aidiyyəti strukturlarının məsul şəxsləri, Siyəzən və Şabran Rayon İcra hakimiyyətlərinin başçıları, adı çəkilən rayonlarda fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak ediblər. Bildirilib ki, təkcə ötən gün respublika üzrə 154 yanğına çıxış qeydə alınıb ki, onun da 38-i şimal bölgəsinin payına düşür. Müşavirədə baş vermiş yanğınların genişlənməsinin qarşısının alınması və söndürülməsi istiqamətində görülmüş işlər müzakirə olunub, zəruri və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

Eyni zamanda nazir müavini E.Mirzəyev "Qalaaltı" İstirahət Mərkəzində istirahət edən vətəndaşlarla görüşüb. Bildirib ki, yanğın təhlükəsinin qarşısının alınması istiqamətində müvafiq zəruri tədbirlər həyata keçirilib, heç bir təhlükə mövcud deyil.

Hazırda Etibar Mirzəyev baş vermiş yanğınların qarşısının alınması ilə bağlı şimal bölgəsindədir. Bu bölgədə yanğınlarla mübarizəyə 600 nəfər şəxsi heyət, 80-nə yaxın texnika, 2 ədəd helikopter və 1 ədəd "BE 200 ÇS" amfibiya təyyarəsi cəlb olunub.

Xatırladaq ki, yanğınlarla mübarizə tədbirlərində FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin, Şimal və Şimal-qərb regional mərkəzlərinin, Mülki müdafiə qoşunları və Xüsusi Riskli Xilasetmə Xidmətinin, Ekologiya və Təbii Sərvətlər və Daxili İşlər nazirliklərinin əməkdaşları iştirak edir. Həmçinin, yanğınsöndürmə əməliyyatlarına "Azərsu" ASC-nin, yerli İcra Hakimiyyətinin müvafiq texnikaları da cəlb edilib.

Hazırda yanğınlarla mübarizə davam etdirilir.

# Prezident yeni səfirləri qəbul etdi



***Avqustun 18-də Azərbaycan Prezidenti İlham Əliyev Monqolustanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Munxbayar Qombosurenin etimadnaməsini qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat xidməti məlumat yayıb.

Prezident İlham Əliyev Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Dipuo Berta Letsatsi-Dubanın etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev Çad Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adum Danqay Nokur Qetin etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Zoe Daun Kolson-Sinklerin etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev Efiopiya Federativ Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adem Muhammed Mahmudun etimadnaməsini qəbul edib.

# Müəllim, direktor və müavinlərinin maaşlarına əlavələr ediləcək



***Prezident İlham Əliyev "Dövlət ümumi təhsil müəssisələrinin rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavələr müəyyən edilməsi haqqında" fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmana əsasən, 2022-ci il sentyabrın 1-dən dövlət ümumi təhsil müəssisələrinin aşağıdakı rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) sertifikatlaşdırmadan keçən təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavə müəyyən edilib:

- direktor və direktor müavinlərinin (təhsilalanların sayına görə);
- təhsilverənlərin (sertifikatlaşdırmanın nəticəsinə görə).

Nazirlər Kabinetinə bu Fərmanın nəzərdə tutulan əlavələrin məbləğlərini 2022-ci il sentyabrın 1-dək təsdiq etmək tapşırılıb.

# Hökumət qərar verdi: Məcburi audit aparılacaq



***Nazirlər Kabineti məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının müəyyən edilməsi üçün meyarları təsdiq edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərarda qeyd olunub ki, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsinə əsasən təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq aşağıdakı meyarlara uyğun gələn təsərrüfat subyektləri və qeyri-yaşayış binalarında enerji auditinin keçirilməsi məcburidir:

- illik enerji istehlakı 1000 ton neft ekvivalentindən çox olan təsərrüfat subyektləri;
- tikinti sahəsi ən azı 10 000 kvadratmetr və ya illik enerji istehlakı 250 ton neft ekvivalentindən çox olan qeyri-yaşayış binaları.

Qərar 2022-ci il 1 iyul tarixindən tətbiq edilir.

# FHN-dəki qadınlarla intim münasibətdə olan polkovnik saxlanıldı

***Xəbər verildiyi kimi, bir sıra media və sosial şəbəkə səhifələrində Fövqəladə Hallar Nazirliyinin bir neçə əməkdaşının intim xarakterli video və fotoları yayılması faktı ilə bağlı Baş Prokurorluq tərəfindən araşdırmalara başlanıb.***

Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, müəyyən olunub ki, Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidməti rəisinin köməkçisi, daxili xidmət polkovniki Zaur Mirzəyev xidməti kompüterinə xüsusi proqram vasitəsilə video və foto çəkiliş həyata keçirmək üçün gizli kamera quraşdırmış, xidməti və sair asılılıqlarından yararlanmaqla cinsi ehtirasını təmin etmək kimi çirkin şəxsi niyyətlə qadınlarla 2013-cü ildən başlamaqla 2019-cu ilin sonlarınadək iş otağında cinsi əlaqə və digər formalarda intim münasibətdə olarkən video və foto çəkilişlər aparmış, hazırlanmış qanunsuz pornoqrafik materialların 2022-ci ilin avqust ayında internet şəbəkələrində yayılmasına səbəb olmuşdur.



Araşdırmalarla Zaur Mirzəyevin səlahiyyət hüdudlarından açıq-aşkar surətdə kənara çıxıb cinayət xarakterli əməlləri ilə həmin şəxslərin hüquq və qanuni mənafelərinə, habelə Fövqəladə Hallar Nazirliyinin işgüzar nüfuzuna ciddi xələl gətirərək ağır nəticələrə səbəb olmasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 156.2.1 (şəxsi həyatın toxunulmazlığını pozma), 242 (pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma) və 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

İş üzrə Zaur Mirzəyev avqustun 17-də şübhəli şəxs qismində saxlanılıb.

Hazırda intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Ermənistan Azərbaycanla sərhəddə üç keçid məntəqəsi açacaq

***Ermənistan Azərbaycanla sərhəddə üç nəzarət-buraxılış məntəqəsi açacaq.***

Bu barədə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin təklif etdiyi layihədə qeyd olunub. Təklif olunan layihəyə əsasən, avtomobillər üçün nəzərdə tutulan sərhəd-keçid məntəqələrinin sayı artırılacaq.

Belə ki, Kəlbəcər rayonu ilə sərhəddə "Zod", Sədərək rayonu ilə sərhəddə "Arazəyən" və Qubadlı rayonu ilə sərhəddə "Eyvazlı" nəzarət-buraxılış məntəqələrinin açılması nəzərdə tutulur.

Layihənin qəbulu baş nazir Nikol Paşinyanın avqustun 4-də hökumətin iclasında verdiyi tapşırıqların yerinə yetirilməsi zərurəti ilə bağlıdır.

# Son sutkada 7 nəfər koronavirusdan öldü



***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 545 yeni yoluxma faktı qeydə alınıb, 479 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 7 nəfər vəfat edib.

# Hərbçimiz həlak oldu - RƏSMİ

***Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mirzoyev Elmar Elçin oğlu odlu silahdan açılan atəş nəticəsində aldığı güllə yarasından vəfat edib.***

Bu barədə "Unikal"-a Müdafiə Nazirliyindən bildirilib.

Faktla əlaqədar araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi vəfat edən hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir!



# Laçından çıxarılan ermənilər vəhşiliklərini davam etdirir

***Avqustun sonuna qədər Laçın şəhərini, Zabux və Sus kəndlərini tərk etməli olan, Azərbaycan ərazisində qeyri-qanuni məskunlaşmış ermənilər evləri yandırmağa, dağıtmağa, meşələrə od vurmağa davam edir.***

"Unikal" xəbər verir ki, bir neçə gün bundan öncə Laçını tərk etməli olan ermənilər Azərbaycan ərazisinə od vurub. Onların meşələri yandırmasını əks etdirən görüntülər yayılıb. Laçını tərk etməli olan ermənilər qanunsuz məskunlaşdığı Azərbaycan ərazisindəki evlərini tərk edərkən dağıntılar törədib, tikililərə od vurub. Həmin görüntülərdə ermənilərin əraziləri yandırması, evləri dağıtması aydın şəkildə görünür.

"Biz artıq bir dəfə ermənilərin Azərbaycan ərazilərini tərk edərkən evləri yandırdıqlarının və təbiətə ciddi ziyan vurduqlarının şahidi olmuşuq. Ermənilər Kəlbəcərdən çıxanda da meşələrə və evlərə od vururdular. Ağdamda isə heç nə qalmamışdı. Əgər orada bir şey qalsa idi, yəqin ki, onu da yandırardılar". Bunu "Unikal"a açıqlamasında sabiq xarici işlər naziri Elmar Məmmədyarov deyib. O bildirib ki, bu, ermənilərin xarakterindən irəli gəlir: "İndi isə belə məlumatlar yayılır ki, Laçında evlərini yandıraraq həmin əraziləri tərk edən ermənilər Ermənistan hökümətindən kompensasiya ala bilməyəcəklər. Təbii ki, bu, onların özlərinin işidir. Cənab Prezident hər zaman çıxışlarında bildirir ki, biz həmin ərazilərdə yaşayan erməniləri öz vətəndaşlarımız kimi qəbul edirik. Necə ki, digər millətlərin nümayəndələri Azərbaycanda yaşayır, eləcə də ermənilər Azərbaycanın qanunlarını tam şəkildə qəbul etdikdən sonra orada yaşaya bilərlər. Mənim üçün çox maraqlıdır ki, görəsən Laçında və Zabux kəndində yaşayan ermənilərin hər hansı biri Azərbaycan vətəndaşlığını qəbul etmək istəyəcək? Əgər onlardan kimsə Azərbaycan vətəndaşlığını qəbul etsə, bu, göstərici bir faktor olacaq. Çünki biz bunu təklif edirik. Biz erməniləri məcburi şəkildə qovmuruq. Onlara Azərbaycan ərazilərində yaşamaq üçün şans veririk", - deyə sabiq nazir qeyd edib.

Milli Məclisin deputatı Sahib Alıyev isə burada təəccüblü bir şeyin olmadığını düşünür. Deputat hesab edir ki, ermənilər bu addımları ilə hansı xislətə sahib olduqlarını nümayiş etdirirlər: "Prezident İlham Əliyevin AzTV-yə verdiyi sülh, qayıdış və reinteqrasiya məsələləri ilə bağlı son intervüdən sonra həm Ermənistanla sərhəddə, həm də Qarabağda Azərbaycan Ordusunun mövqelərinin atəşə tutulmasının davam etdirilməsi, hayların 29 il əvvəl Laçında törətdikləri vəhşilikləri yenidən təkrarlamaları, yəni oradakı evlərə od vurmaları onu göstərir ki, bu xəstə təfəkkürlülər ancaq bir dil anlayırlar, o da güc dilidir. Yəni, avqustun 3-dəkilər arabir təkrarlanmalıdır ki, reallığı unutmasınlar. Laçında və Zabuxda boşaldılan evlərin yandırılmasına gəldikdə, əminəm ku, buna asimmetrik cavab veriləcək. Azərbaycanın xəbərdarlığına əməl olunmaması xəbərdarlıq edilənlərə baha başa gəlməlidir və gələcək. Orada evləri yandıranların isə kimlikləri bir-bir təsbit olunmalı, onlara qarşı cinayət işi açılmalı və beynəlxalq axtarışa verilməlidirlər".

Deputat onu da qeyd edib ki, Qarabağda Rusiya hərbi kontingentinin müvəqqəti kontrolu altında yaşayanların son zamanlar ən çox şikayət etdikləri məsələ onunla bağlıydı ki, su qıtlığı üzündən əvvəlki kimi əkib-biçə bilmirlər. Amma sən demə əkirlərmiş, torpaqlarımıza yenə mina basdırırlarmış: "Belə "tarla"lardan biri də avqustun 3-də qanunsuz silahlı birləşmələrdən təmizlənən Sarıbaba yüksəkliyi yaxınlığında tapılıb. Oradan çıxarılıb zərərsizləşdirilən 991 ədəd mina 2021-ci ildə Ermənistanda istehsal olunub. Belə görünür ki, ikinci Qarabağ savaşından sonra da haylar Azərbaycan torpaqlarına mina basdırmaqda davam edirlər və Laçınla yanaşı digər yerlərdə də o cür "tarla"ların olması mümkündür. Bizim tez-tez işlətdiyimiz bir məsəl var: "Nə əkərsən, onu da biçərsən". Yəqin Ermənistan ordusunun Qarabağdakı tör-töküntülərinə və oradakı separatçı ünsürlərə bu məsələnin niyə yarandığını xatırlatmaq lazım gələcək. Onlar Azərbaycan torpaqlarına əkdiklərini biçməli olacaqlar, ya da avqustun 3-dəki kimi özləri biçiləcəklər. Maraqlıdır, bəs Rusiyanın Qarabağdakı hərbi kontingenti nə üçün sözügedən terrorçuluğun qarşısını almaq istəməyib? Heç inandırıcı deyil ki, onlar hayların Ermənistandan Qarabağa mina daşıyıb basdırmalarından xəbərsiz olsunlar. Rusiya hərbi kontingentinin rəhbərliyi mütləq bu suala cavab verməlidir. Və bu suala da cavab verməlidir ki, əgər məramları doğrudan da Qarabağda sülh yaratmaqdırsa, iki ilə yaxındır ordadırlar, hayların reinteqrasiyası, eləcə də azərbaycanlıların Xankəndinə, Xocalıya və müvəqqəti kontrolları altında olan digər yerlərə qayıdıb yaşamaları üçün nə ediblər, kiçicik də olsa bir hazırlıq görüblərmi?".



Millət vəkili Vüqar Bayramov da məsələyə fərqli prizmadan münasibət bildirib: "Bəzi xarici kütləvi informasiya vasitələrində 2013-cü ildən sonra Yaxın Şərqdən gətirilərək Laçın şəhərində qeyri-leqal məskunlaşdırılmış erməni ailələrinin evlərini tərk etməsi az qala faciə kimi təqdim edilir. Reallıqda isə Laçın şəhəri öz tarixi və doğma sakinlərini qarşılamağa hazırlaşır. Unutmayaq ki, qeyri-leqal məskunlaşma hətta BMT konvensiyaları ilə də qadağan edilir. Amma əgər kimlərsə respublikaların keçmiş statistikalarına inanmırlarsa o zaman keçmiş SSRİ dövründəki əhalinin siyahıya alınması ilə bağlı rəqəmlərə diqqət yetirsinlər. Rusiya mənbələrində 1959-cu ildən sonrakı illərdə siyahıya alma ilə bağlı məlumatlar hələ də saxlanılır. Keçmiş SSRİ dövründə aparılan əhalinin siyahıya alınması və etnik tərkibləri bütün reallıqları göstərir. 1959-cu il siyahıya alınması: Laçın rayonunun cəmi əhalisi 24.734 nəfər olub və onların 24.466 nəfəri Azərbaycanlılar idi (98.9%). 1970-ci il siyahıya alınmasında cəmi əhali 35.642 nəfər, Azərbaycanlıların sayı 33.186 (93.1%), Kürdlər 2.125, Ermənilər cəmi 72 nəfər göstərilir. 1970-ci il siyahıya alınmasında cəmi əhali 63.162 nəfər, Azərbaycanlıların sayı 58.058 (95.6%), Kürdlər 2.437, Ermənilər cəmi 34 nəfər olub. Keçmiş sovet dövründə də Azərbaycanlılar ilə Kürdlər bir ailə kimi yaşayıblar. Ermənilərin isə ümumi əhalinin tərkibində çəkisi heç zaman hətta 1.0 faizə belə çata bilməyib".

V.Bayramov onu da qeyd edib ki, bütün bunlar qədim Azərbaycan torpağında 30 illik işğal müddətində ermənilərin qeyri-qanuni yerləşdirilməsini bir daha təsdiq edir: "Hətta orada yerləşdirilən ermənilər də məhz son illər Laçın şəhərində məskunlaşdırıldıqlarını etiraf edirlər. Bəs, bəzi xarici mətbu orqanlar bunu niyə gözardına vururlar? Bütün bunlara baxmayaraq, cəmi 1 həftə sonra Laçın şəhəri yenidən azadlığına qovuşacaq. Bu dəfə əbədi".

***Z.Məmmədli***



## MN: "Ölkəmizin hava məkanı etibarlı müdafiə olunur"

***Hərbi Hava Qüvvələrinin Hava Hücumundan müdafiə bölmələrində sutkaboyu fasiləsiz olaraq xidmət aparılır, hava məkanımız daima izlənilir və müvafiq tədbirlər görülür.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Yüksək döyüş hazırlığının nəticəsidir ki, hava hücumundan müdafiə bölmələrinin sayıqlığı sayəsində avqustun 13-ü Şuşa şəhəri ətrafında bölmələrimizin mövqeləri üzərində kəşfiyyat məqsədli uçuşlar həyata keçirməyə cəhd göstərən qanunsuz erməni silahlı dəstələrinə məxsus kvadrakopter aşkar edilmiş və xüsusi üsulla endirilərək ələ keçirilmişdir.

Azərbaycan-Ermənistan dövlət sərhədində, eləcə də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində döyüş növbətçiliyi aparan Ordumuzun şəxsi heyəti istənilən təxribatın qarşısını almağa hazırdır.

## Agentlikdə iki vəzifəli şəxs işdən çıxdı



***Dövlət Turizm Agentliyinin iki sektor müdiri vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, xarici ölkələrlə əməkdaşlıq sektorunun müdiri Cavid Abdullayev və Beynəlxalq təşkilatlarla iş və protokol sektorunun müdiri Kənan Əliyev öz ərizələri əsasında işdən ayrılıblar.

Trend bu barədə Agentliyə istinadən xəbər verir.

## İran hərbi nümayəndə heyəti Ağdamda olub

***Azərbaycanda səfərdə olan İran İslam Respublikası Silahlı Qüvvələrinin nümayəndələrindən ibarət mütəxəssis heyəti Ağdam rayonunda olub.***

"Unikal" Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin əməkdaşlarının da iştirak etdiyi səfərdə qonaqlar azad edilmiş ərazilərdə işğal zamanı Ermənistan silahlı birləşmələri tərəfindən törədilmiş vandalizmin nəticələri və dağıntıları ilə tanış olublar.

Onlara dağıdılmış tarixi abidələrimiz və yaşayış məntəqələrimiz, eləcə də həmin ərazilərdə dövlətimiz tərəfindən aparılan sürətli yenidənqurma işləri haqqında ətraflı məlumat verilib.

İran İslam Respublikası Silahlı Qüvvələrinin nümayəndələrindən ibarət mütəxəssis heyətinin işğaldan azad olunan ərazilərə səfəri davam edir.



# DSX-də generalların sayı 33-ə çatdı

***Xəbər verdiyimiz kimi, ötən gün Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla 3 hərbçiyə general-leytenant, 6 hərbçiyə isə general-mayor rütbəsi verilib. Bununla da DSX-də xidmət edən generalların sayı 33-ə çatıb.***

**"Unikal" DSX generallarının siyahısını təqdim edir:**

1) General-polkovnik Elçin Quliyev - DSX-nin rəisi
2) General-leytenant Rəşad Sadiqov - DSX rəisinin birinci müavini - Baş Qərargah rəisi
3) General-leytenant İlham Mehdiyev - DSX rəisinin müavini, Vətən Müharibəsi Qəhrəmanı
4) General-leytenant Firuz Şirinzadə - DSX rəisinin müavini
5) General-leytenant Əfqan Nağıyev - DSX rəisinin müavini
6) General-leytenant Abbas Xəlilov - DSX rəisinin müavini
7) General-leytenant Araz Məmmədov - DSX rəisinin müavini - Sərhəd Qoşunlarının Komandanı
8) General-leytenant Əsgər Xəlilov - DSX rəisinin müşaviri
9) General-leytenant Elçin İbrahimov - DSX-nin Aparat rəhbəri
10) General-leytenant Ehram Hacıyev - Çevik Hərəkət Qüvvələrinin sabiq komandanı
11) General-leytenant İsmayıl Əkbərov - DSX rəisinin sabiq müavini
12) General-leytenant Azad Ələkbərov - DSX rəisinin sabiq müavini
13) General-leytenant Fərhad Tağızadə - DSX rəisinin sabiq müavini
14) General-leytenant Niyaməddin Tağıyev - "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri
15) General-leytenant Rəsul Tağıyev - Çevik Hərəkət Qüvvələrinin komandanı
16) General-leytenant Müzəffər Pirizadə - DSX Sahil Mühafizəsinin rəisi
17) General-leytenant Asif Cəbrayılov - DSX rəisinin əməliyyat-axtarış işi üzrə sabiq müavini-Baş Əməliyyat-Axtarış İdarəsinin rəisi
18) General-leytenant Cavid Abdullayev - DSX-nin Maddi-Texniki Təminat Baş idarəsinin rəisi
19) General-leytenant Elşən Verdiyev - DSX-nin Akademiyasının sabiq rəisi
20) General-mayor Babək Qurbanov - Vətən Müharibəsi Qəhrəmanı
21) General-mayor Ramin Bağırov - Vətən müharibəsinin komandanlarından biri
22) General-mayor Ayaz Hüseynov - DSX-nin Kadrlar şöbəsinin rəisi
23) General-mayor Faiq Məmmədov
24) Kontr-admiral (ekvivalent rütbə general-mayor) Ziyad Ağayev
25) Kontr-admiral (ekvivalent rütbə general-mayor) Abbas Qiyasov
26) General-mayor Azər İbrahimov - DSX-nin istintaq və təhqiqat idarəsinin rəisi
27) General-mayor Aqşin Məhərrəmov - Vətən müharibəsinin komandanlarından biri
28) General-mayor Vüsal Sultanov - Vətən Müharibəsi Qəhrəmanı
29) General-mayor Azad Abdullayev
30) General-mayor Aqil Babayev - DSX Akademiyasının rəisi
31) General-mayor Natiq Abuzərli
32) General-mayor Misir Əliyev
33) General-mayor Zaur Niftullayev

Xatırladaq ki, bu gün Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının peşə bayramıdır. Belə ki, Azərbaycan Sərhəd Mühafizəsinin yaranmasından 103 il ötür.

***Hazırladı: Murad İbrahimli***

# "Bahalaşma xəbərdarlığı inhisarçı-fürsətçilərin növbəti oyunudur"

## Teyyub Əliyev: "Azərbaycanda unun və çörəyin qiymətinin artacağının heç bir iqtisadi əsası yoxdur"

***Son günlər unun və çörəyin qiymətinin artması ilə bağlı fikirlər səsləndirilir. Artıq hökumət nümayəndələri də qarşıdakı dövrdə böhranın olacağını etiraf edirlər. Bununla da sanki insanları bəribaşdan bahalaşmaya hazırlaşdırırlar. Təkamül Partiyasının sədri, iqtisadçı alim Teyyub Əliyevlə də söhbətimiz bu mövzu ətrafında oldu.***

***-Teyyub bəy, unun və çörəyin qiymətinin qalxması ilə bağlı bir narahatlıq var. Öncə bu barədə fikirlərinizi bilmək istərdik.***

-Rusiyanın Ukraynaya təcavüzü nəticəsində dünyada taxıl ixracı sahəsində önəmli yerlərdən birini tutan Ukraynanın, eləcə də Rusiyanın özünün, taxılının ixracında problemlər yaranıb. Bu səbəbdən də bir çox xarici ölkələrdə, eləcə də Azərbaycanda, unun və çörəyin qiymətinin artacağı barədə tez-tez fikirlər səslənir. Düzdür, Türkiyə Prezidenti hörmətli R.T.Ərdoğanın təşəbbüsü ilə Ukrayna və Rusiyanın taxılının ixracına start verilib, ancaq qiymət artımı barədə fikirlər səngimək bilmir. Dünyanın digər ölkələrində proseslərin necə gedəcəyini zaman göstərəcək. Prezident İlham Əliyev bu yaxınlarda rəsmi şəkildə bildirmişdir ki, Azərbaycanın taxıl idxalı sahəsində heç bir problemi yoxdur. Ona görə də, hesab edirəm ki, Azərbaycanda unun və çörəyin qiymətinin artacağına dair səsləndirilən fikirlərin heç bir iqtisadi əsası yoxdur! İnhisarçı-fürsətçilərin Azərbaycanda unun və çörəyin qiymətinin artacağına dair səsləndirdikləri fikirlərin də heç bir iqtisadi əsası yoxdur.Yəni, bahalaşma xəbərdarlığı inhisarçı-fürsətçilərin növbəti oyunudur. Əvvəl ictimai fikri hazırlayırlar, sonra da istədikləri qiyməti tətbiq edirlər.

***-Ümumiyyətlə, ölkədə qiymət artımının tənzimlənməsi məsələsi uzun illərdir davam edir, amma buna adekvat hər hansı bir ciddi iş görülmür. Bu, mümkün deyil, yoxsa hökumətin səriştəsizliyinin nəticəsidir?***

-Azərbaycanda qiymətlərin tənzimlənməsi ilə birbaşa məşğul olmalı olan qurumların rəhbərləri qiymətləri artıran inhisarçı strukturların qohum-əqrabası, yaxınlarıdır. Ona görə də bu strukturlardan qiymətlərin tənzimlənməsi sahəsində ciddi bir təşəbbüsü gözləmək küləkli havada qovrulmuş qorğa yemək kimi bir şeydir. Hökumətdə təmsil olunanların bir çoxlarının da qanuna zidd olaraq dolayı yollarla biznes fəaliyyəti ilə məşğul olduqları nəzərə alınarsa qiymət artımının qaçılmaz olacağı qənaətinə gəlmək olar.

***-Rəqabət məcəlləsini də parlamentdən keçirib son nöqtəsini qoya bilmirlər. Buna kimlər imkan vermir?***

-Azərbaycanda bir çox hallarda məsələlər, problemlər qanunlarla yox, telefon zəngləri ilə idarə olunur, "həll edilir". Qanunverici hakimiyyət strukturu olan Milli Məclisin öz təşəbbüsü ilə qanunlar qəbul etmək səlahiyyətləri o qədər də geniş deyil. Hakimiyyət strukturlarında yüksək vəzifə tutan inhisarçı biznesmenlər Rəqabət Məcəlləsinin qəbul edilməsini öz biznesləri üçün təhlükə hesab edirlər, ona görə də Məcəllənin qəbuluna imkan vermirlər.

***-Milli Məclisdəkilər xalqın vəkilləri deyillərmi, niyə məsələyə xalqın prizmasından yanaşmırlar?***

-Milli Məclisin vəkillərini kimlər seçibsə, onlar da onlara xidmət edirlər. Bunun xalqa heç bir aidiyyatı yoxdur. Düzdür, ara-sıra bəzi "millət vəkilləri" xalqa yönəlik müəyyən müsbət fikirlər səsləndirirlər, ancaq bu fikirlər Milli Məclisin binasından kənara çıxmır. Çıxsa da, vecinə alan yoxdur.

***-Siz iqtisadiyyat sahəsindəki problemlərdə kadr, rüşvət və korrupsiya, digər məqamların səbəb olduğunu deyirsiz, amma hökumət də bu istiqamətdə islahatların aparıldığını iddia edir. O zaman niyə problemlər yerində qalır. Hətta daha da dərinləşir?***

-Azərbaycanda rüşvətxorluğun, korrupsiyanın, məmur özbaşınalığının olduğunu Prezident İlham Əliyevdən başqa heç bir nazir, komitə sədri, icra başçısı və s. dilə gətirmir. Prezident dəfələrlə bu məqamlara toxunmuş, onların aradan qaldırılması üçün müvafiq göstərişlərini, tapşırıqlarını vermişdir. Ancaq bunlara məhəl qoyan yoxdur. Bunun birinci səbəbi rüşvətxorların, korrupsionerlərin və s. adları açıq elan edilsə də layiqli cəzalarının verilməməsi ilə bağlıdırsa, ikinci səbəbi qanunların, sərəncamların, tapşırıqların yerinə yetirilməsinə nəzarət mexanizminin olmaması (və ya buna etinasız yanaşılması), üçüncü səbəbi bu cür neqativ hallarla mübarizə aparmalı olan strukturların rəhbərlərinin bir çoxunun qeyd edilən əməllərlə məşğul olması ilə əlaqədardır. Nə qədər ki, işdən çıxarılan məmurların yerinə onların qohum-əqrabası, cavan kadr adı ilə, vəzifəyə təyin ediləcək, onda neqtiv hallar davam edəcəkdir. Çünki atalar demiş: "Alma öz ağacının dibinə düşər.



***-Hazırda turizm mövsümüdür. Ölkədə turizmlə bağlı vəziyyət barədə nə deyə bilərsiz?***

-Son illər turizmin inkişafı üçün Azərbaycanda müəyyən işlər görülüb. Bunun nəticəsində hər il ölkəmizə gələn turistlərin sayında müəyyən artım hiss olunur. Amma hələlik bu sahədə ciddi dəyişikliklərin olduğunu söyləmək olmaz. İstirahət edənlərin sayının çox olması onlara xidmət edənlər üçün sərfəlidir, iqtisadi cəhətdən səmərəlidir. Ancaq bunu Azərbaycanda istirahət edənlərin mütləq əksəriyyəti üçün demək mümkün deyil. Əvvəla, muzdla işləyənlərin mütləq əksəriyyətinin aylıq məvacibi normal istirahət etməyə imkan vermir. Pensiyaçılar üçün isə istirahət etmək əlçatmazdır. Məvacibin, pensiyanın azlığı, istehlak mallarının gündən-günə bahalaşması bu kateqoriyadan olan insanlar üçün haradasa istirahət etmək haqqında düşünməyə belə imkan vermir. İkincisi, Azərbaycanın, o cümlədən hazırda istirahət etdiyim Nabranın istirahət ocaqlarının mütləq əksəriyyətində qiymətlər baha, xidmət mədəniyyəti ən aşağı səviyyədədir. Bu səbəblərdən də, istirahət etmək imkanı olanların çoxu növbəti ildə istirahətlərini xaricdə keçirmək haqqında düşünürlər.

***Z.Məmmədli***

# Ziya Məmmədovun adı növbəti beynəlxalq qalmaqalda!

## ABŞ-ın keçmiş prezidenti Azərbaycanın sabiq nəqliyyat nazirini niyə məhkəməyə verir?

***Yola salmaqda olduğumuz həftə məlumat yayıldı ki, ABŞ-ın əmlak inşaatı sahəsində dünya liderlərindən sayılan "The Trump Organization" şirkətinin vitse-prezidenti, ABŞ-nın eks prezidenti Donald Trampın qızı İvanka Tramp keçmiş nəqliyyat naziri Ziya Məmmədova məxsus olan "Qarant Holdinq" şirkətini Beynəlxalq Arbitraj məhkəməsinə verir.***

Buna səbəb Donald Trampın adını daşıyan "Trump International Hotel & Tower Baku" adlı binanın tikintisinin başa çatmasına baxmayaraq, hələ də açılışın baş tutmamasıdır.

İvanka Trampın fikrincə bu, onun rəhbərlik etdiyi şirkətin işgüzar nüfuzuna böyük zərbədir.

Məlumata görə, 33 mərtəbəli, 130 metr hündürlüyü olan bu bina 2015-ci ildə inşa edilsə də, indiyə qədər istifadəyə verilməyib. Boş bina indi sadəcə mühafizə olunur.

"Trump otel"in 189 otağından ən kiçiyinin sahəsi 60 kvadrat metr təşkil edir. Hər bir nömrənin divarı təbii daş və palıd şponlar ilə işlənib. Otelin birinci mərtəbəsində konfrans zalı, nahar zalı və bar, 500 kvadrat metr sahəsi olan qəbul zalı yerləşir.

Ümumilikdə, "Trump Baku" müxtəlif növ görüş və tədbirlər üçün 2800 kvadrat metr sahə təqdim edə bilir.

Xatırladaq ki, bu, adı ölkə daxilində kifayət qədər ciddi korrupsiya skandallarına qarışan Ziya Məmmədovun ilk beynəlxalq qalmaqalı deyil. Daha öncə sabiq nəqliyyat nazirinin adı Kanadanın "Bombardier Transportation" şirkətinin İsveçdəki törəmə şirkətinin keçmiş menecerinə qarşı başlanan cinayət işində keçmişdi.

Yada salaq ki, 2013-cü ildə Bakını Gürcüstan sərhədi ilə birləşdirən dəmiryolunun bir hissəsini siqnal avadanlığı ilə təchiz etmək üçün keçirilən tenderdə "Bombardier"in başçılıq etdiyi konsorsium qalib gəlmişdi. Baxmayaraq ki, digər iştirakçılar tenderdə daha az qiymətə öz xidmətlərini təklif etmişdilər. Müqavilə imzalanarkən Azərbaycanda nəqliyyat naziri Ziya Məmmədov idi, Azərbaycan Dövlət Dəmiryollarına (ADDY) isə Arif Əsgərov rəhbərlik edirdi. Sabiq nazirin adı İsveçdə araşdırılan cinayət işindəki sənədlərdə də yer alırdı. Bir az da dəqiqləşdirsək, şirkət meneceri Tomas Bimerə 2013-cü ildə Azərbaycanın Nəqliyyat Nazirliyi ilə bağlanmış müqavilə üzrə azərbaycanlı məmurlara "otkat" verdiyi barədə rəsmi ittiham irəli sürülmüşdü. Tomas Bimer xüsusilə ağırlaşdırılmış hallarda rüşvətlə ələ almada ittiham olunurdu. Prokurorlar bildirirdilər ki, Azərbaycanda dəmir yollarına siqnalizasiya sistemlərinin quraşdırılmasını nəzərdə tutan 350 milyon dollarlıq müqavilədə "dəmir yollarının ən azından bir orta səviyyəli rəhbərinə" 100 milyon dollar rüşvət ödənilib. Həmin vaxt Azərbaycan adından şirkətlə danışıqları Z.Məmmədov apardığından əslində bu "otkat"ın ona çatdığı iddia edilirdi. Sözügedən rüşvətin qiymətlərin kəskin şişirdilməsi və aralıq offşor şirkətlərdən istifadə olunması yolu ilə alındığı deyilirdi. Hazırda bu qalmaqalla bağlı prosesin nə yerdə olduğu tam bəlli deyil. Prosesin Z.Məmmədova ciddi başağrısı yaradacağı proqnozlaşdırılsa da, bir neçə aydır sözügedən mövzu ətrafında sakitlikdir. Lakin məsələnin tamamilə unudulmuş olması az ağlabatandır və mümkündür ki, qarşıdakı dövrdə biz haqqında danışılan rüşvət olayı ilə bağlı yeni xəbərlər eşidək...

Onu da deyək ki, həmin vaxt yerli mətbuat İsveçdəki 100 milyon dollarlıq "otkad" işi ilə bağlı mövqeyini öyrənmək üçün Ziya müəllimlə əlaqə saxlayıb sabiq nazirin telefonuna özünü adi işçi kimi təqdim edən şəxs cavab verməmişdi. Jurnalist həmin şəxsdən Ziya Məmmədovun bu qalmaqalla bağlı Ucardan Bakıya çağırılaraq istintaqa cəlb edilib- edilmədiyi barədə soruşmuş, əvəzində "bilmirəm" cavabını almışdı.

"Ziya Məmmədov Bakıdadırsa, onun Ucardakı mal-qarasına kim baxır, yonca, taxıl, arpa sahələrini kim idarə edir" sualına da eyni cavab verilmişdi (məsələ burasındadır ki, keçmiş "nəqliyyat şefi" "unikal.org"a açıqlamasında vəzifədən çıxarılandan sonra Ucarda əkin-biçinlə məşğul olduğunu, mal-qara saxladığını demişdi)...



Beləliklə, adı İsveçdə 100 milyon dollarlıq "otkad" skandalına qarışan Z.Məmmədov hazırda yeni beynəlxalq qalmaqalla üzləşib. Onun ailə holdinqinin Birləşmiş Ştatların sabiq prezidentinin qızı tərəfindən məhkəməyə verilməsi də yəqin ki, özü ilə böyük səs-küy gətirəcək. Eks-nazirin bu işi necə yoluna qoyacağını demək çətindir, lakin bir məqam dəqiqdir ki, proses Ziya müəllim üçün kifayət qədər yorucu və üzücü olacaq. Xüsusilə nəzərə alsaq ki, sabiq "nəqliyyat şefi"nin qarşı tərəfin irəli sürdüyü tələbləri yerinə yetirmək imkanları xeyli məhduddur, hətta yox dərəcəsindədir, o zaman həm onun özü, həm də ölkədən kənarda yaşayan biznesmen oğlu - Anar Məmmədov xoşagəlməz sürprizlərlə qarşı-qarşıya qala bilər...

***Sənan Mirzə***



# Azərbaycanda ən çox maaşı bu şəxslər alır - Rəqəmlər

***2022-ci ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2021-ci ilin müvafiq dövrünə nisbətən 14.2 faiz artaraq 827.1 manat təşkil edib.***

"Unikal" bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

Əməkhaqqı neft-qaz sektorunda 3535.3 manat, qeyri neft-qaz sektorunda 775.3 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 774.9 manat, özəl müəssisələrdə isə 886.9 manat olub.

Mədənçıxarma sənayesində (3400.3 manat), maliyyə və sığorta fəaliyyəti (2167.1 manat), peşə, elmi və texniki fəaliyyət (1390.4 manat), eləcə də informasiya və rabitə sahələrində (1353.4 manat) orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

# Qızdırma, sancı, baş ağrısı... - Həkimdən xəbərdarlıq

***Son günlər əhali arasında qızdırma və sancı ilə müşayiət olunan xəstəlik yayılıb. Apteklərdə hər gün yüzlərlə insan qarın ağrısı, qızdırma, baş ağrısına qarşı dərman alır.***

Nədir bu xəstəliyin adı, qarşısını necə almaq olar?

Tibbi ekspert Rasif Bağırov Bakıvaxtı.az-a bildirib ki, uşaqlar və böyüklər arasında yayılan sancı və qızdırma nəticəsində çox vaxt diareya baş verir: "Son dövrlər apardığımız müşahidələr onu göstərir ki, bunlarla yanaşı, eyni zamanda, koronavirus xəstəliyi də özünü göstərir. Maraqlıdır ki, koronavirusa yoluxanların heç birində diareya müşahidə olunmur. Bu, yüngül virusdur. Xəstədə baş ağrıları, qarında diareya əlamətləri, sancılar, ürək bulanma və s. belə hallar müşahidə olunur. Yüngül preparatlar və antibiotiklə 4-5 günə terapiya etdikdə keçib gedir".

Həkim vurğulayıb ki, hər bir xəstəlik insan orqanizmindən asılı olaraq ağırlaşa bilər: "Bu elə bir xəstəlikdir ki, qorunmaq üçün gərək maskadan istifadə edilsin ki, həmin virus orqanizmə daxil olub mikrobları oyadıb belə vəziyyət yaratmasın. Heç çox adam onu da istifadə etmir, düşünür ki, onsuz da, 3-4 günə keçib gedən şeydir".

# ÜST: "Meymunçiçəyi virusunun adının dəyişdirilməsi üzərində çalışırıq"

***Meymunçiçəyi virusu 92 ölkədə müşahidə edilib. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus mətbuat konfransında bildirib.***

Onun sözlərinə görə, dünya üzrə yoluxma sayı 35 mini keçib və 12 nəfər virusa görə həyatını itirib.

Gebreyesus qeyd edib ki, onlar COVID-19 pandemiyası zamanı müşahidə etdikləri kimi, peyvəndlərə ədalətsiz çıxışın təkrarlanacağından və ən yoxsulların geridə qalmağa davam edəcəyindən narahatdırlar.

O, həmçinin əlavə edib ki, meymunçiçəyi virusunun adının dəyişdirilməsi üzərində iş gedir.



# DSX rəisi işğaldan azad olunmuş dövlət sərhədlərimizdən danışdı

***"Qəhrəman Azərbaycan sərhədçisi - uğrunda qan tökdüyü və şəhidlər verdiyi torpaqlarımızın azad olunmasında iştirakından və Azərbaycan-Ermənistan dövlət sərhədində üçrəngli dövlət bayrağımız altında dövlətin maraqlarını qorumaqdan böyük şərəf və qürur duyur!"***

Bunu Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev bildirib. O vurğulayıb ki, bu gün beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəlməsi, ölkə iqtisadiyyatının qüdrətlənməsi ilə əlaqədar sərhəd təhlükəsizliyi məsələlərinin ön plana keçdiyi şəraitdə sərhəddə dövləti maraqları müdafiə edən sərhədçilərimiz onlara göstərilən ali diqqətə görə qürur hissi keçirirlər: "Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev DSX-nin hərbi hissə və bölmələrinə 41 dəfə səfər edib. Bu rəqəm təkcə region dövlətləri üçün deyil, bütün dünya miqyasında sərhəd mühafizə orqanlarına dövlət başçısı tərəfindən göstərilən diqqət və qayğının unikal göstəricisi, Dövlət Sərhəd Xidmətinin fəaliyyətinə, həyata keçirilən islahatlara verilən ən yüksək qiymətdir".

DSX rəisi vurğulayıb ki, şəxsi heyət üçün zəruri xidməti və yaşayış şəraitinin yaradılması üzrə qaldırdığımız hər bir məsələyə Azərbaycan Prezidenti İlham Əliyev hər zaman xüsusi diqqətlə yanaşıb:

"Məhz bunun nəticəsidir ki, 2001-ci ildən etibarən Dövlət Sərhəd Xidmətinin bütün sərhəd dəstələrinin qarnizonları, "Sərhədçi" İdman Mərkəzi, Abşeron rayonunun Goradil və Lənkəran rayonunun Vel qəsəbələrində istirahət mərkəzləri, Türkan qəsəbəsində DSX Sahil Mühafizəsinin yeni bazası və yaşayış binaları kompleksi, DSX Akademiyası, Sərhəd Nəzarəti inşa edilib, Dövlət Sərhəd Xidmətinin Aparatının binası əsaslı təmir edilib. Sərhədçilərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında Bakı şəhərində 412 mənzilli yaşayış binaları inşa olunub, 624 mənzildən ibarət yaşayış şəhərciyinin inşası və güzəştli ipoteka şərtləri ilə DSX əməkdaşlarının mülkiyyətinə verilməsi layihəsi uğurla icra olunub. Respublika miqyasında 154 binadan ibarət 1441 xidməti mənzil tikilərək və ya əsaslı təmir edilərək sərhədçilərin istifadəsinə verilib".

"Azərbaycan sərhəd mühafizəsinin bütün şəxsi heyəti dövlət sərhədinin toxunulmazlığının təmin edilməsi kimi müqəddəs vəzifə ilə fəxr edir və gələcəyinə inamla baxır. Bu inam Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasətinə və onun rəhbərliyi altında əldə edilən taleyüklü qələbələrə əsaslanır. Bu gün səngərdə və sərhəddə böyük əzmlə xidmət aparan qəhrəman Azərbaycan sərhədçisi - uğrunda qan tökdüyü və şəhidlər verdiyi torpaqlarımızın azad olunmasında iştirakından və Azərbaycan-Ermənistan dövlət sərhədində üçrəngli dövlət bayrağımız altında dövlətin maraqlarını qorumaqdan böyük şərəf və qürur duyur! Vətəninə, dövlətinə, Prezidentinə xidmət etmək qürurunun daşıyıcısı olan hər bir Azərbaycan sərhədçisi bundan sonra da şərəflə xidmət edəcək, doğma Azərbaycanımızın təhlükəsizliyi və inkişafı naminə səy və bacarığını əsirgəməyəcək, müqəddəs sərhədlərimizin keşiyində daim ayıqsayıq duracaq!", - o bildirib.

# Keçmiş deputatın biznesə müəmmalı başlanğıcı...

## Şirkət yaratdıqdan cəmi 8 gün sonra tender qazanmaq nə qədər məntiqlidir?

***Yola salmaq üzrə olduğumuz həftənin diqqətçəkən məlumatlarından biri də keçmiş deputatın şirkət yaratdıqdan cəmi 8 gün sonra tender qazanması oldu. Belə ki, Milli Məclisin sabiq üzvü Müslüm Məmmədovun "Alpha Medical and Construction" adlı MMC təsis etdiyi bildirilib.***

Yerli KİV-in yazdığına görə, İqtisadiyyad Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reystr məlumatlarında göstərilir ki, "Alpha Medical and Construction" MMC 27 iyul 2022-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 100 AZN olan şirkətin qanuni təmsilçisi Məmmədov Müslüm Mürsəl oğludur.



Şirkət 1 aydır ki, fəaliyyət göstərməsinə baxmayaraq, artıq tenderlərə qatılıb və qalib olub. Avqust ayında "Alpha Medical and Consturction" MMC ilə Akademik Mirqasımov adına Respublika Kliniki Xəstəxanası arasında satınalma müqaviləsi imzalanıb. Maliyyə dəyəri 154 976.48 AZN təşkil edən müqavilədə cari təmir işləri üçün mal-materialların, dəftərxana və təsərrüfat mallarının satın alınması nəzərdə tutulub.

2015-ci ildə 57 saylı Kürdəmir seçki dairəsindən mandat qazanaraq V çağırış Milli Məclisin deputatı olan Müslüm Məmmədov daha əvvəl Belçika Krallığında Azərbaycan Kommunikasiya ofisinin rəhbəri vəzifəsində çalışıb. Ucarda doğulub və hazırda 42 yaşı var.

M.Məmmədov deputat olarkən bəzi maraqla açıqlamalar verib. Məsələn, eyni rayondan olduğu sabiq nəqliyyat naziri barədə deyib: "Ziya Məmmədov nazir olduğu dövrdə mən xaricdə idim. Ona görə də onunla heç bir əlaqəmiz və ya tanışlığımız olmayıb. Deputat kimi yox, bir vətəndaş kimi deyə bilərəm ki, Ucar camaatının ondan gözləntiləri olub, bu da təbii haldır. Ola bilsin ki, müəyyən gözləntilər özünü doğrultmayıb. Ziya müəllimin nazir işlədiyi dövrdə bəzi kəndlər var idi ki, yol şəraiti çətin idi. Əslində, ola bilsin ki, bu, onun da səlahiyyətində olmayıb. Çünki büdcədən pul ayrılanda regionların inkişafı proqramına uyğun olaraq bölüşdürülür, təbii ki, nazir də üzərinə düşən vəzifəni icra etməlidir. Amma sadə insanların da fərqli düşüncəyə sahib olduqlarını unutmayaq".

Seçildiyi dairənin özündən əvvəlki biznesmen-deputatı Fərhad Qəribovun "Kazinolar kralı" adlandırılmasına isə keçmiş millət vəkili, indiki biznesmenin münasibəti belə olmuşdu: " Düzü, Fərhad Qəribovla heç vaxt görüşməmişəm və şəxsi tanışlığım da yoxdur. Ancaq haqqında kifayət qədər müsbət fikirlər eşitmişəm. O ki, qaldı haqqında çıxan söhbətlərə, bunların nə dərəcədə düz olub-olmamasını bilmirəm. O, iş adamıdır. Qazandığı pulu istədiyi kimi xərcləyə bilər. Əlbəttə, səsləndirilən fikirlər həqiqətdirsə, daha yaxşı olardı ki, o pulu daha xeyirli işlər üçün xərcləyərdi. Amma yenə də bu, onun şəxsi işidir".

Onu da deyək ki, M.Məmmədov deputat seçilərkən onun Belçika vətəndaşı olduğuna dair iddialar ortaya atılmışdı. Lakin həmin vaxt bu təkzib edilmişdi. "Müslüm Məmmədov Belçika Krallığının vətəndaşı deyil. O, Ucarda dünyaya gəlib, ucarlıdır" deyə sabiq deputatın ovaxtkı vəkili bildirmişdi.

Əlavə edək ki, M.Məmmədov deputat olarkən heç də aktivliyi ilə seçilməyib. Bundan başqa, onun millət vəkili olmamışdan əvvəl başladığı dissertasiya işini Milli Məclis üzvlüyü zamanı tamamladığı və müdafiə etdiyi bildirilir. Həmçinin, onun mütaliəyə ciddi həvəs göstərdiyi, həm Azərbaycan, həm də xarici dillərdə bədii və elmi ədəbiyyat oxumağı çox sevdiyi deyilir.

Qaldı ki eks-millət vəkilinin biznesə girişməsinə, bunda təəccüblü heç nə yoxdur. Əksər deputatlar elə Milli Məclis üzvü ikən bizneslə məşğul olurlarsa, M.Məmmədovun mandatı ilə vidalaşdıqdan sonra şirkət yaratmasına təbii yanaşmaq lazımdır. Ancaq...

Ancaq onun şirkətinin təsis edildikdən cəmi 8 gün sonra böyük məbləğdə tender udması nə qədər məntiqlidir? Axı "Dövlət satınalmaları haqqında" Qanunun 6-cı maddəsində malgöndərənlərin (podratçıların) ixtisasına dair tələblər yer alıb. Həmin maddənin 6.2.1-ci bəndində açıq şəkildə yazılır ki, satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması lazımdır. Bəs yarandıqdan cəmi 8 gün sonra tender udan bir şirkət bu kriteriyalara necə cavab verə bilər?!

***Sənan Mirzə***

# İsmayıl İsmayılovun biznesi əlindən çıxır

## Sabiq nazir müavininin biznesmen oğlu iki şirkətin təsisçiliyindən niyə çıxarılıb?

***Gənclər və idman nazirinin sabiq müavini İsmayıl İsmayılovun biznes obyektləri əlindən alınıb.***

Bildirildiyinə görə, İsmayıl İsmayılovun oğlu Elvin İsmayılov artıq "Gilan Holdinq"ə daxil olan "Gilan İnşaat" MMC-nin qanuni təmsilçisi hüququnu itirib. Bir aydır ki, MMC-nin qanuni təmsilçisi Emil Sultanov Rauf oğludur.

Hazırda isə MMC-nin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinə 12 min 543 manat 80 qəpik borcu var.

Bundan başqa, İsmayıl İsmayılovun oğlu rəhbərlik etdiyi daha bir şirkətin - idman ləvazimatlarının, o cümlədən ov silahlarının satışı üzrə ixtisaslaşmış "Qəbələ Sport Store" MMC-nin qanuni



təmsilçiliyindən də çıxarılıb. "Qəbələ Sport Store" MMC-nin qanuni təmsilçiliyinə Zaur İbrahimov Davud oğlu gətirilib.

Hazırda İsmayıl İsmayılovun oğlunun rəhbərlik etdiyi - təsisçisi olduğu şirkət "Core Construction"dur. "Qaynarinfo" yazıb ki, yeni hüquqi ünvana köçən Elvin İsmayılovun təsisçisi olduğu bu şirkətdən də yaxın vaxtlarda uzaqlaşdırılacağı istisna edilmir.

Əldə etdiyimiz məlumata görə, sabiq nazir müavininin oğlunun iki şirkətin təsisçiliyindən çıxarılması onun atasının nazir müavini postundan kənarlaşdırılması ilə birbaşa bağlıdır. Əvvəla, İsmayıl İsmayılovun yüksək postdan uzaqlaşdırılmasından sonra oğlunun xidmətinə ehtiyac görülməyib. Çünki ata İsmayılov vəzifədə olarkən öz statusundan istifadə edərək həm "Gilan İnşaat"ın, həm də "Qəbələ Sport Store"nin ciddi məbləğli sifarişlər almasına yardımçı olurdu. İndi isə eks-müavin həmin imkanlardan məhrumdur, bu səbəbdən də onun oğlunun adıçəkilən iki MMC-nin təsisçiliyində qalmasının da mənası yoxdur.

Digər tərəfdən, hələ bir müddət öncə mətbuatda İ.İsmayılovun fəaliyyətinin təftiş edildiyinə dair məlumatlar yayılmışdı. Belə ki, Hesablama Palatasının Gənclər və İdman Nazirliyində "Tokio-2020" Yay Olimpiya Oyunlarına və federasiyalara ayrılan vəsaitin auditini aparacağı rəsmən açıqlanıb. Bu yoxlamanın isə Gənclər və İdman Nazirliyinin (AGİN) həm idman sahəsinə, dolayısı ilə "Tokio-2020" Yay Olimpiya Oyunlarına hazırlıq prosesinə, həm də idman federasiyalarının fəaliyyətinə məsul olmuş İsmayıl İsmayılova ciddi başağrısı yaradacağı deyilirdi.

Deyilənlər, nəhayət ki, dünən təsdiqini tapdı: AGİN və tabeliyində olan qurumlar (seçmə qaydada) tərəfindən dövlət vəsaitinin və digər dövlət qurumlarının idarə olunmasının və istifadəsinin auditinə dair Hesablam Palatasının audior hesabatı yayıldı. Hesabatdan məlum oldu ki, adıçəkilən nazirlikdə, həqiqətən də, çoxsaylı maliyyə pozuntularına yol verilib. Bu barədə qəzetimizin elə bu sayındakı başqa bir yazıda ətraflı bəhs edəcəyik, ona görə də təfərrüata varmadan qeyd edək ki, Palatanın yoxlaması Gənclər və İdman Nazirliyinin keçmiş rəhbərliyinin fəaliyyətində korrupsiyaya yol verdiyinə dair uzun müddətdir mediada və cəmiyyətdə dilə gətirilən iddiaların həqiqətəuyğunluğunu gözlər önünə sərdi. Elə hesabatın sonunda qeyd olunan nöqsanların aradan qaldırılması ilə yanaşı nöqsanlara yol vermiş vəzifəli şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunması istiqamətində zəruri tədbirlər həyata keçirilməsi barədə tövsiyə də durumun ciddiliyindən xəbər verir.

Məlumatlar belədir ki, çoxsaylı korrupsiya iddialarının aparılan yoxlamalar nəticəsində təsdiqini tapacağı hələ əvvəlcədən məlum olduğundan, nəticədə isə keçmiş nazir müavini İ.İsmayılovu olduqca çətin günlərin gözləyəcəyi bilindiyindən haqqında danışılan iki şirkət onun oğlunu təsisçilikdən kənarlaşdırmağa qərar verib. Bununla onlar özlərini mümkün xoşagəlməz situasiyadan sığortalamaq istəyiblər.

O ki, qaldı İ.İsmayılovun oğlunun təsisçi olaraq qaldığı üçüncü şirkətə, yəni, "Core Construction" MMC-yə, bu şirkət müxtəlif istiqamətli tikinti, təmir, dizayn işləri həyata keçirib. Məsələn, "Azərbaycanın və Qafqazın ən nəhəng sənaye müəssisələrindən biri" kimi təqdim edilən Mingəçevir Sənaye Parkında da böyük məbləğdə işlər görüb. Belə ki, "Core Construction" adıçəkilə müəssisədə inzibati bina, yeməkxana və zavod daxili inzibati məntəqələrin dizayn və təmiri, nasosxanalar, su anbarları və yanğınsöndürmə məntəqələrinin tikintisini, həmçinin ərazinin asfaltlanması, yaşıllaşdırma abadlıq işlərini həyata keçirib. Qafqazın ən iri tütün məmulatları zavodu sayılan "Baku International Tobacco"-da əsaslı daxili təmir və yenidənqurma işləri, mövcud dəzgah və cihazların bərpası, zavodun həyətyanı sahəsində landşaft və asfalt is?ləri də məhz E.İsmayılovun rəhbərliyi altında həyata keçirilib.

Lakin son aylarda sabiq nazir müavininin oğlu tərəfindən idarə edilən şirkətin hansısa iri layihə həyata keçirdiyinə dair heç bir məlumat yoxdur. Bu isə maraq doğurmaya bilməz. Görünür, sabiq nazir müavininin oğlunun həmin şirkətin təsisçiliyindən də kənarlaşdırılacağı barədə iddialar əbəs deyil...

Xatırladaq ki, İ.İsmayılov ötən ilin noyabrında müavin vəzifəsindən uzaqlaşdırılıb.

***Toğrul Əliyev***



# AQTA yoxlama apardı: Bağçalarda nöqsanlar aşkarladı

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ölkədə fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində yoxlamaları davam etdirir.***

AQTA-dan "Unikal"a bildirilib ki, 8-12 avqust tarixlərində respublika üzrə fəaliyyət göstərən 18 uşaq bağçasında Agentlik əməkdaşları tərəfindən aparılan monitorinqlər zamanı ümumilikdə 158 nöqsan müəyyən olunub. Aşkar edilmiş nöqsanlarla bağlı 17 uşaq bağçası barəsində inzibati tədbir görülüb.

Qeyd edək ki, monitorinqlər zamanı məktəbəqədər təhsil müəssisələrində qidalanmanın Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 103 saylı qərarında göstərilən qida normalarına uyğun təşkil edilməsi, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin yerinə yetirilməsi vəziyyətinin qiymətləndirilməsi, həmçinin yeyinti məhsullarının tədarük prosesi, saxlanılması, daşınması, realizə olunması, markalanması və qablaşdırılmasına dair tələblərə əməl olunub-olunmadığı yoxlanılır. Bununla yanaşı, mütəxəssislər tərəfindən uşaq bağçalarında qida məhsullarının hazırlandığı və saxlanıldığı sahələrin sanitar-texniki və sanitar-gigiyenik normalara uyğunluğuna yerində baxış keçirilir.

# Artilleriyaçılarımız beynəlxalq müsabiqədə uğurla iştirak edirlər

***Qazaxıstan Respublikasında keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin növbəti mərhələsində gecə atışları icra olunub.***

MN-dən "Unikal"a verilən məlumata görə, maneələr zolağını və minalanmış ərazini keçən artilleriyaçılarımızın ikinci heyəti işıqlandırılan hədəfləri minaatan, qumbaraatan və avtomatlardan atəş açmaqla məhv edib.

Bütün tapşırıqların öhdəsindən bacarıqla gələn hərbi qulluqçularımız hakimlərin qərarına əsasən mərhələni üçüncü yerdə başa vurublar. Qeyd edək ki, beynəlxalq müsabiqədə Azərbaycan ilə yanaşı, Qazaxıstan, Belarus, Ermənistan, Qırğızıstan, Rusiya, Tacikistan, Venesuella və Zimbabve komandaları iştirak edir.

# Xaçmaz sakinində narkotik aşkarlandı

***Xaçmaz sakinində 5 kiloqram narkotik aşkarlanıb. Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Quba regional qrupundan məlumat verilib.***

Bildirilib ki, Xaçmaz Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları "Xaşxaş-2022" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində rayon ərazisində narkotik tərkibli bitkilərin külli miqdarda kultivasiyası ilə məşğul olmaqda şübhəli bilinən rayon sakini Elmin Kərimovu saxlayıblar.

Polis əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində həmin şəxsin öz həyətində əkib yetişdirdiyi 189 ədəd (140 kiloqram) yaş vəziyyətdə əkilib-becərilməsi qadağan olunmuş çətənə (kannabis) bitkisi və 5,2 kiloqram narkotik vasitə olan marixuana aşkar olunaraq götürülüb.

Bundan başqa, polis əməkdaşlarının keçirdikləri digər əməliyyat-axtarış tədbirləri zamanı rayon sakini Nayib Cəfərov saxlanılıb. Həmin şəxsin üzərinə baxış keçirilən zamanı narkotik vasitə olan heroin aşkar olunaraq götürülüb.

Faktlarla bağlı Xaçmaz RPŞ-də cinayət işi açılıb.



# General: "DSX-nın maddi-texniki bazası daimi olaraq yenilənir"

***"Dövlət Sərhəd Xidmətinin maddi-texniki bazası daimi olaraq yenilənir".***

Bunu Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev bildirib. DSX rəisinin sözlərinə görə, sərhəd bölmələri müasir silahlarla, döyüş texnikaları ilə, xüsusi avadanlıqlarla, yüksək manevrli və keçid qabiliyyətli nəqliyyat, sualtı əməliyyat və müşahidə vasitələrilə, istehkam avadanlıqları və qoruyucu vasitələrlə təmin edilirlər:

"Dövlət sərhədlərinin etibarlı mühafizəsi həlledici dərəcədə sərhədçilərin peşəkarlığından, sərhəd bölmələrinin peşəkar kadr heyəti ilə komplektləşməsindən asılıdır. Dövlət Sərhəd Xidmətinin fəaliyyətində kadr hazırlığı çox əhəmiyyətli və xüsusi diqqət yetirilən bir sahədir".

# Polis Yevlaxda əməliyyat keçirib, saxlanılan var

***Yevlax Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbirləri nəticəsində aqrotexniki qaydada qulluq göstərməklə narkotik tərkibli çətənə bitkiləri yetişdirən şəxs saxlanılıb.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, araşdırmalarla onun rayon sakini Anar Abbasov olduğu müəyyən edilib.

Şöbə əməkdaşları tərəfindən həmin şəxsin yaşadığı ünvana keçirilən baxış zamanı fərdi yaşayış evinin həyətindən kultivasiya yolu ilə yetişdirilmiş hündürlüyü 3 metrədək olan 13 ədəd çətənə bitkisi, eləcə də 450 qram qurudulmuş marixuana aşkar olunaraq götürülüb. Faktla bağlı Yevlax RPŞ-də araşdırmalar davam etdirilir.

# "Azərsu" sədrinin I müavini vətəndaşları qəbul etdi

***Mərkəzi icra hakimiyyəti orqanlarının, digər idarəetmə qurumlarının rəhbərlərinin 2022-ci ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini Teyyub Cabbarov 17 avqust 2022-ci il tarixində Qusar şəhərində Qusar və Quba rayonlarından olan vətəndaşları qəbul edib.***

"Unikal" xəbər verir ki, qəbuldan əvvəl "Azərsu" ASC sədrinin birinci müavini Teyyub Cabbarov və Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Qusar şəhəri Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Qusar və Quba rayonlarından 39 nəfər iştirak edib. Vətəndaşların müraciətləri içməli su təchizatı və tullantı sularının axıdılması xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib.

# Bakıdakı Müdafiə sərgisində 200-dən çox şirkət iştirak edəcək

***Sentyabrın 6-dan 8-dək Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Müdafiə Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində 4-cü Azərbaycan Beynəlxalq Müdafiə sərgisi "ADEX" keçiriləcək.***



Bu barədə "Unikal"a Müdafiə Sənayesi Nazirliyindən məlumat verilib. Bildirilib ki, COVID-19 pandemiyası ilə əlaqədar yaranan fasilədən sonra sərgi yenidən təşkil edilir. Müasir silah və texnika sərgisi olan "ADEX" Azərbaycanın və dünya şirkətlərinin hərbi-sənaye kompleksinin gücünü və qüdrətini nümayiş etdirəcək.

26 ölkədən 200-dən çox şirkəti bir araya gətirəcək "ADEX" Bakı Ekspo Mərkəzinin üç pavilyonunu və açıq sahəsini əhatə edəcək. İştirakçılar arasında Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorunun aparıcı şirkətləri olacaq. İlk dəfə İordaniyadan olan şirkətlərin də qatılacağı builki sərgidə Belarus, İran, İsrail, Qazaxstan, Pakistan, Rusiya, Türkiyə və digər ölkələr milli stendləri ilə iştirak edəcəklər.

Qeyd edək ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı zəfərdən sonra ilk dəfə keçiriləcək "ADEX" sərgisi müzəffər ordumuzun bu qələbəsində müstəsna rol oynayan müasir silahların əhəmiyyətini, ölkəmizin hərbi sənaye kompleksinin qüdrətini vurğulamaq üçün xüsusi önəm kəsb edir.

Xatırladaq ki, Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin stendləri Bakı Ekspo Mərkəzinin birinci və üçüncü zallarında yerləşdiriləcək. Burada yerli istehsal olan ən son silah və hərbi texnika nümayiş etdiriləcək. Tədbir iştirakçıları ölkənin müdafiə kompleksindəki yeniliklərlə, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin mövcud və artmaqda olan imkanları ilə tanış ola biləcəklər.

"ADEX"də ən müasir silah növlərinin genişmiqyaslı nümayişi Silahlı Qüvvələrin texniki cəhətdən yenidən təchiz olunmasına töhfə verəcək, konstruktiv ünsiyyətə, təcrübə mübadiləsinə, hərbi-texniki sahədə yerli və xarici mütəxəssislər arasında səmərəli əlaqələrin qurulmasına şərait yaradacaq.

Sərgidə təyyarə və aviasiya sistemləri, dəniz gəmiləri və hərbi dəniz sistemləri, zirehli döyüş nəqliyyat vasitələri, radioelektron sistemlər, C4ISR, optik-elektron avadanlıq və sistemlər, pilotsuz sistemlər, hərbi geyim və ləvazimatlar, silah və sursat, simulyatorlar və təlim sistemləri, radiasiya, kimyəvi və bioloji müdafiə (RKB), hərbi təşkilatlar, ixracın təşviqi ilə məşğul olan müəssisələr və s. sektorlar təmsil olunacaq.

"ADEX" ilə paralel olaraq, hüquq-mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modellərini nümayiş etdirəcək 13-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgisi də keçiriləcək. Qeyd olunan sərgi Azərbaycan Müdafiə Sənayesi Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətinin dəstəyi ilə təşkil olunur.

"Securex Caspian" sərgisi əməkdaşlığın inkişafı, təcrübə mübadiləsi üçün əlverişli şəraitin yaradılmasına töhfə verəcək və dövlətin, cəmiyyətin, vətəndaşların daxili təhlükəsizliyinin təmin edilməsi üçün tətbiq olunan problemlərin həllinə kömək edəcək. Sərgini Azərbaycanın hüquq-mühafizə və xilasetmə orqanlarının, qəza-xilasetmə və sərhəd xidmətlərinin rəhbərləri, beynəlxalq nümayəndə heyətləri, eləcə də şəhər infrastrukturu, nəqliyyat, sənaye müəssisələri və s. obyektlərin təhlükəsizliyinin təmin olunmasında iştirak edən mütəxəssislər ziyarət edəcəklər", - məlumatda qeyd olunub.

# Horadizdən Ağbəndə çəkilən yolun yeni görüntüləri

***Azərbaycan üçün böyük əhəmiyyətə malik olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun yeni görüntüləri yayılıb.***

"Unikal" xəbər verir ki, kadrlarda yolun 81-101-ci km-lərinin inşasını həyata keçirən "AzVirt" MMC-nin gördüyü işlər yer alıb.

Ümumi uzunluğu 123,8 km olan yolun təməli 2021-ci ilin aprelin 26-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyevanın Cəbrayıl və Zəngilan rayonlarına səfəri zamanı qoyulub.

Yol işğaldan azad edilmiş ərazilərin inkişafı üçün əhəmiyyətli olan 10 yol-infrastruktur layihələrindən biri hesab edilir.

Başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu 6 və 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 80 kilometrlik hissəsi 3 gediş - 3 gəliş olmaqla 6, qalan 43,8 kilometrlik hissəsi isə 2 gediş - 2 gəliş olmaqla 4 hərəkət zolaqlı olması nəzərdə tutulub.



Hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 29.5 və 21.5 metr təşkil edəcək.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun olaraq zəruri yerlərdə ümumi uzunluğu 6015 metr təşkil edən 3 avtomobil tuneli, 2 viaduk və 23 avtomobil körpüsü, 8 yol ötürücüsü, 50 yeraltı keçid, 5 yerüstü keçid, suların ötürülməsini təmin etmək məqsədilə 400 dairəvi boru və düzbucaqlı su keçidi, həmçinin kommunikasiya xətləri üçün 60 ehtiyat keçidinin inşası nəzərdə tutulub ki, bu işlərin müəyyən hissəsi artıq icra olunur. Belə ki, hazırda 8 körpünün təməl və svay işləri görülür.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu işğaldan azad edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının ərazisindən keçir və hazırda inşası aparılan Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut və Xudafərin-Qubadlı-Laçın avtomobil yolları başlanğıcını məhz bu yoldan götürür.

## 6.3.17. ekologiya və ətraf mühitin mühafizəsi;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Meşə yanğınlarının baş vermə səbəbi nədir?

## Elmar Nuriyev: "Yaxşı olardı ki, meşə ərazilərinə giriş hissələrdə xəbərdarlıq lövhələri daha çox təşkil edilsin"



***Azərbaycanda meşə yanğınları güclənib. Quba və Şabran rayonlarının dağlıq ərazilərindəki meşə sahəsində yanğın başlayıb. Yanğın Qalaaltı hotelinə qədər çatıb. Baş verən yanğın hadisəsi təhlükənin miqyasının günü-gündən artdığından xəbər verir.***

Bəs görəsən meşə yanğınlarının əsas səbəbi nədir?

Yanğın üzrə ekspert Elmar Nuriyev bildirib ki, meşə ətrafında istirahət zamanı, pikniklərdə tonqalın söndüyünə tam əmin olmadan ərazini tərk etmək meşə yanğınları ilə nəticələnir. Onun sözlərinə görə, bunun qarşısı vaxtında alınmadıqda təhlükənin miqyasının genişlənməsinə gətirib çıxarır: "Beləliklə, həm ekologiyaya, həm insanlara, həm də onların əmlakına ziyan dəyir. Meşə yanğınlarının qarşısını almaq üçün aidiyyəti üzrə qurumlar ormanlıq sahələrdə yaşayan sakinlərə də, orada yerləşən istirahət mərkəzlərinə, otellərə, onların işçilərinə də təlimatlar verməlidir. Yaxşı olardı ki, meşə ərazilərinə giriş hissələrdə xəbərdarlıq lövhələri daha çox təşkil edilsin. İnsanları maksimum məlumatlandırmaq lazımdır".

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova bildirib ki, yanğının səbəbləri Fövqəladə Hallar Nazirliyi tərəfindən araşdırılsa da, yanğın hadisəsinin baş vermə səbəbləri havanın isti və quraq keçməsi, təbiət qoynunda istirahət edən turistlərin ehtiyatsız davranmasıdır: "Biz əhaliyə xəbərdarlıq etmişdik ki, qızmar yay günlərində meşələrdə yanğın təhlükəsi artır. Ona görə də meşə ərazilərinə yaxın kəndlərin əhalisindən, təbiət qoynunda istirahət edən turistlərdən xahiş edirik ki, yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etsinlər. Bəzən söndürülməmiş siqaret kötüklərini ətrafa atır, yanğına rəvac verirlər. Meşədə dincələn insanlar odla ehtiyatlı davranmalıdırlar".

İ. İbrahimova deyir ki, meşə yanğınları meşə ətrafındakı kəndlərin sakinləri, onların təsərrüfatları üçün də təhlükə yaradır: "Ona görə də, taxıl sahələri biçildikdən sonra yandırılması ilə mübarizədə kənd sakinləri fəal olmalıdırlar. Biçilən sahələrin yandırılması yanğınların baş verməsinə səbəb olur".

İ. İbrahimova onu da qeyd edib ki, hazırda nazirlik əməkdaşları yanğının baş verdiyi ərazidədirlər.

Fövqəladə Hallar Nazirliyindən (FHN) bildirildi ki, bir neçə gündür Şabran rayonunda müşahidə olunan yanğın "Qalaaltı" hotelinin yaxınlığına çatıb. Ötən gecədən etibarən Çıraqqala ətrafında güclü yanğınlar başlayıb. Yanğın gecə saatlarında şiddətlənib. FHN-in şəxsi heyətinin səyi nəticəsində yanğına müəyyən qədər müdaxilə olunub. Lakin relyefin mürəkkəb olması yanğını söndürmək üçün çətinlik yaradır.

Ümumilikdə ölkə ərazisində son sutka ərzində 109 yanğına çıxış hadisəsi qeydə alınıb. Bunun 47-si Şimal-qərb və Şimal regionunun payına düşüb. Təxminən 500 hektara yaxın ərazini əhatə edən bu yanğınlar arasında biçilmiş taxıl, quru ot, kol-kos sahələri və meşə massivləri üstünlük təşkil edir. Ötən gün Şabran rayonunun Xəlfələr kəndi ərazisində biçilmiş taxıl sahəsində başlayan yanğının havanın isti və küləkli olması səbəbindən qısa zamanda genişlənərək bir neçə fərdi ev və yardımçı tikiliyə zərər vurub. Havanın isti və küləkli olması yanğınsöndürmə işlərini çətinləşdirsə də, yanğının genişlənməsinin qarşısının alınması və söndürülməsi istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir. Hazırda yanğınlar nəzarət altına alınıb və soyutma işləri davam etdirilir.

FHN-dən bildirilib ki, Şabran rayonunun Zöhrəmli kəndi ərazisində biçilmiş taxıl sahələrində baş verən yanğınlar nəticəsində bir neçə ev yanıb. Fövqəladə Hallar Nazirliyinin (FHN) 10-dan artıq yanğınsöndürən avtomobili, canlı qüvvəsi və Aviasiya dəstəsinin "BE 200 ÇS" amfibiya təyyarəsi də cəlb olunub.

Nazirlikdən həmçinin qeyd edilib ki, yanğın təhlükəsizliy haqqında Azərbaycan Respublikası Qanununun 6-cı və 7-ci maddələrinin tələblərinə əsasən yanğın təhlükəsizliyi qaydalarına riayət etmək bütün fiziki, vəzifəli və hüquqi şəxslərin vəzifə borclarına aid edilmişdir. Yanğın təhlükəsizliyi qaydalarının pozulması zamanı fiziki, vəzifəli və hüquqi şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin 518-ci maddəsində nəzərdə tutulan inzibati tədbirlər tətbiq edilir.

Üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs və ya şəxslər tərəfindən bu qaydaların pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda onların əməlləri artıq cinayət məsuliyyətinə səbəb olur.

Odur ki, vətəndaşlarımıza özlərinin həyat və sağlamlığının, eləcə də əmlaklarının yanğından qorunması, həmçinin bu istiqamətdəki hüquqi məsuliyyətin yükündən azad olmaları üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etmələrini tövsiyə edirik. Əkin sahələrinin yandırılması bir qayda olaraq yolverilməzdir. Bu cür hadisələr meteoroloji amillərin təsirindən başqa ərazilərə yayılaraq yanğınların daha geniş əraziləri əhatə etməsinə səbəb olur. Son günlərdə Şabran rayonu ərazisində meşə sahələrində baş vermiş yanğın hadisələrinin səbəblərinin ibtidai araşdırılması zamanı mövcud vəziyyət əkin sahələrinin yandırılması səbəbindən meşə ərazilərinin yanğına məruz qalması qənaətinə gəlməyə əsas verir.

Hava şəraitini nəzərə almağı, ərazinin yanğına qarşı vəziyyətini qiymətləndirməyi bacarmayan vətəndaş əkin sahəsini müxtəlif tədbirlər adı altında yandırmaqla digər ərazilərə, həmçinin meşə sahələrinə də ciddi yanğın təhlükəsi yaradırlar.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



# Beynəlxalq Festivala film qəbulu başladı

***Qısa Filmlər Festivalı film qəbulunu elan edir. 11-15 noyabr tarixlərində Bakıda 13 -cü Bakı Beynəlxalq Qısa Filmlər Festivalı keçiriləcək. Festival yerli və əcnəbi rejissorlar üçün film qəbulunu açıq elan edir.***

Müəlliflər 30 dəqiqədən çox olmayan qısa filmlərini festivalın beynəlxalq, yerli və "Cinemobil" bölmələrinə təqdim edə bilərlər.

Beynəlxalq müsabiqəyə xarici və yerli müəlliflər bədii, sənədli və animasiya filmlərini sentyabrın 10-una kimi göndərməlidirlər.

Yerli müsabiqəyə bədii, sənədli, animasiya filmləri və sosial çarxlar qəbul olunur. Müəlliflər filmlərini festivalın saytı vasitəsilə sentyabrın 20-ə kimi göndərə bilər. Filmlər 2020-2022-ci illərdə istehsal olunmalıdır.

Yerli müsabiqədə iştirak hüququ qazanan filmlər "Ən yaxşı bədii film", "Ən yaxşı sənədli film", "Ən yaxşı animasiya filmi", "Ən yaxşı sosial çarx", "Ən yaxşı rejissor", "Ən yaxşı ssenari", "Ən yaxşı tələbə filmi" nominasiyası uğrunda mübarizəyə qoşulacaq.

Festivalın onlayn keçiriləcək "Cinemobil" müsabiqəsinə mobil telefon, planşet vasitəsilə çəkilən, müddəti 5 dəqiqədən artıq olmayan bədii, sənədli filmlər qəbul olunur.

Festivala göndərilən filmləri peşəkar mütəxəssislərdən ibarət Seçim Komissiyası dəyərləndirəcək. Festivalda "Qızıl Nar" uğrunda yarışacaq filmlərin siyahısı 20 oktyabr 2022-ci ildə www.filmfestival.az saytında yerləşdiriləcək.

Hər il festivalın münsiflər heyətində Kann, Berlin film festivallarında ən yüksək mükafatlara layiq görülən kinematoqrafçılar təmsil olunur. Bu il də festival ənənəsinə sadiq qalaraq peşəkar mütəxəssisləri bir araya gətirəcək. 13-cü Bakı Beynəlxalq Qısa Filmlər Festivalının münsiflər heyəti noyabr ayında ictimaiyyətə təqdim olunacaq.

Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi Bakı Beynəlxalq Qısa Filmlər Festivalı artıq 13 ildir ki, əzmlə yoluna davam edir. Hər il auditoriyasını genişləndirməyi hədəfləyən festival gənc kinematoqrafçıları bir araya gətirən ən böyük yerli kino hadisəsidir.

Məqsəd ölkəmizdə kinematoqrafın təməllərindən hesab olunan QISA FİLMLƏRƏ marağın artırılmasını, gənc kinematoqrafçıların həvəsləndirilməsi və onlara dəstəyi özündə əks etdirir.

Festivala göndərilən filmlər arasında Kann, Venesiya, Berlin Film Festivallarında, "OSKAR"da mükafat və uğur qazanmış filmlər də yer alır. Festivalın müsabiqə bölümündə isə fərqli yanaşma tərzi ilə seçilən filmlər yarışır.

Hörmətlə, Bakı Beynəlxalq Qısa Filmlər Festivalının Təşkilat Komitəsi

(+994 55) 221-20-41

www.filmfestival.az

office@filmfestival.az

# Kibertəhlükəsizlik Mərkəzinin keçirəcəyi təlimlərə qeydiyyat başlandı




***Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti ilə İsrailin "Technion" Universiteti arasında imzalanmış müqaviləyə əsasən təsis edilmiş Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin keçirəcəyi təlimlərə qeydiyyat prosesinə start verilib.***

"Unikal" xəbər verir ki, kibertəhlükəsizlik sahəsi üzrə təlimlərdə iştirak üçün 18 yaşdan yuxarı və ingilis dili biliklərinə malik olan Azərbaycan vətəndaşları müraciət edə bilərlər.

İştirakçıların seçimi bir neçə mərhələdə həyata keçiriləcək. İlkin mərhələdə təlimlərdə iştirak etmək istəyənlər onlayn qeydiyyat forması ilə müraciət edəcəklər. Yalnız qeydiyyatdan keçmiş namizədlər növbəti mərhələlərdə iştirak hüququ əldə edəcəklər. Daha sonra namizədlərin məntiqi və analitik düşüncə qabiliyyəti, İT sahəsində bilikləri və ingilis dili səviyyəsi yoxlanılacaq. Sonuncu mərhələdə isə onlarla müsahibə aparılacaq və müsahibədən uğurla keçən 60 nəfər təlimlərdə iştirak hüququ əldə edəcək.

Proqrama qəbul olunan şəxslər 6 ay müddətində "Technion" Universitetinin professor-müəllim heyətinin keçəcəyi təlimlərdə iştirak edəcəklər. Tədris ingilis dilində aparılacaq. İştirakçılar şəbəkə, proqramlaşdırma, əməliyyat sistemləri ilə bağlı biliklər əldə etməklə yanaşı, kibertəhlükəsizlik sahəsində müxtəlif istiqamətlər üzrə ixtisaslaşacaqlar. Təlim proqramını uğurla başa vuranlar "Technion" Universitetinin sertifikatını əldə edərək kibertəhlükəsizlik üzrə mütəxəssisə çevriləcəklər.

Təlimlərdə iştirak etmək istəyən namizədlər https://cert.az/kibertehlukesizlik-telim-qeydiyyat.html keçidinə daxil olaraq və onlayn müraciət formasını dolduraraq qeydiyyatdan keçə bilərlər. Qeydiyyat üçün son tarix 20 sentyabr 2022-ci ildir. Qeyd edək ki, Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi tərəfindən növbəti 3 il ərzində 1000-dən çox yerli mütəxəssis hazırlanacaq. Bununla yanaşı, Mərkəzdə yerli təlimçilərin hazırlanması, mövcud mütəxəssislərin bilik və bacarıqlarının artırılması, eləcə də rəhbər şəxslər üçün təlimlərin təşkili nəzərdə tutulub.

# MİQ üzrə müsahibə mərhələsinə start verildi

***Bu gündən etibarən müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsinə başlanılıb.***

Bu barədə "Unikal"a Təhsil İnstitutunun İnsan Resursları Mərkəzindən xəbər verilib.

Bildirilib ki, Bakı şəhəri 18 nömrəli tam orta məktəbdə keçiriləcək müsahibələrə 5298 nəfər dəvət edilib. İlk gün biologiya (Azərbaycan və rus bölməsi), informatika, Azərbaycan dili və ədəbiyyat, musiqi fənləri üzrə müsahibələr təşkil olunacaq.

25 avqust tarixinədək davam edəcək müsahibələr zamanı müvafiq komissiya tərəfindən namizədlərin peşəkar kompetensiyaları, psixoloji hazırlığı və ümumi dünyagörüşü proqrama uyğun olaraq yoxlanılacaq.

# BDU-da prorektorların say həddi müəyyənləşdirilib

***Bakı Dövlət Universitetində prorektorların say həddi müəyyənləşdirilib.***

Nazirlər Kabineti bununla bağlı "Bakı Dövlət Universitetinin Nizamnaməsi"nə dəyişiklik edib. Beləliklə, Universitetin 7 (yeddi) prorektoru vardır. Universitetin prorektorlarının sayı Təhsil Nazirliyi ilə razılaşdırmaqla dəyişdirilə bilər.

Qeyd edək ki, prorektorları, Universitetin təqdimatı əsasında Təhsil Nazirliyi təyin edir. Rektor olmadıqda, Universitetin fəaliyyətinə rəhbərliyi Təhsil Nazirliyi tərəfindən müəyyən edilən prorektor həyata keçirir.

# Kolleclərə ixtisas seçimi başa çatdı

***9 illik bazadan kolleclərə ixtisas seçimi başa çatıb.***

"Unikal" xəbər verir ki, ümumilikdə 15 639 nəfər ixtisas seçimində iştirak edib.

Azərbaycan bölməsi üzrə ixtisas seçənlər sayı 15 264, rus bölməsi üzrə isə 375 nəfər təşkil edir.

Qeyd edək ki, ixtisas seçimi prosesi 17 avqust 23.00-da başa çatmalı olsa da, proses bu gün saat 10.00-dək uzadılmışdı.

# "Daşnaklar və millətçilər Zabuxa doluşub" - Laçından qayıdan jurnalist

***"Haqqın.az" saytının baş redaktoru Eynulla Fətullayev dünən Qarabağdakı Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarət zonasında olan Laçın şəhəri və Zabux kəndində olub.***



Artıq Laçından Bakıya qayıdan jurnalist təəssüratlarını bölüşüb. Eynulla Fətullayevin sözlərinə görə, Laçın şəhərini tərk edən ermənilər evləri söküb özləri ilə aparırlar. O, Zabux kəndində 1-2 evin yandırıldığını, böyük əksəriyyətinin isə salamat olduğunu qeyd edib. Jurnalist Zabuxda qanunsuz yaşayan erməni sakinlərin əksəriyyətinin kənddən çıxdığını bildirib. Əvəzində kəndə separatçılar və millətçilər doluşub.

E.Fətullayevin sözlərinə görə, erməni millətçilər arasında Zabux kəndi ilə bağlı şiddətli ehtiraslar var.

"Erməni işğalçı administrasiyası Cenevrə konvensiyalarına zidd olaraq bu kənddə qanunsuz məskunlaşma həyata keçirib - Suriyadan və Livandan olan insanları yerləşdirib. Elə kənd administrasiyasının başçısı da Livan ermənisi Andranik Çavuşyandır".

Zabuxda azərbaycanlılara tanış olan separatçı simalarla rastlaşdığını qeyd edən E.Fətullayev onlardan birinin adını da çəkib - Arşak Zakaryan.

"Bəli, bəli, Kəlbəcər üçün göz yaşı tökən, Cəbrayılın qapısında dayanıb Bakını qaçılmaz işğalla hədələyən həmin fiqur - İrəvandan olan hərbi bloger",- deyə E.Fətullayev Zabux səfəri ilə bağlı qeydlərində bildirib

O, Zabuxda "Daşnaksütyun"un tanınmış simalarını, Birinci Qarabağ müharibəsi zamanı döyüşmüş revanşistləri də görüb.

"Zabuxda kiçik, lakin güclü qəzəbi olan dəstə var idi. Evlər yandırılacaqmı? İcma rəhbəri Çavuşyan suala qeyri-müəyyən cavab verdi: "Bu, erməninin öz mülkünə münasibətindən asılıdır. İnsanların evlərini yandırmasına mane ola bilmərik"" .

Jurnalistin "doğrudanmı azərbaycanlılarla ermənilərin birgə dinc yaşamasına nail olmaq mümkün deyil" sualını İrəvandan Zabuxu "qorumağa" gəlmiş Arşak Zakaryan sərt qarşılayıb.

"Zakaryan 1990-cı illərdən tanınmış daşnak Minasyanı əmin edirdi ki, o, bura Zabux ermənilərini xilas etmək üçün gəlib...

...Sakinlər artıq kənddən çıxıblar, 5-10 nəfər qalıb, Amma İrəvandan millətçi fəallar gəlib, əslində kəndi onlar qoruyur. Görüşdüm, söhbətləşdim onlarla. Amma istəməsələr belə çıxacaqlar, maksimum 1 sentyabrda", - E.Fətullayev Laçın səfəri ilə bağlı söhbətin yekununda bildirib.

Xatırladaq ki, Azərbaycan tərəfi Laçın rayonunun Zabux və Sus kəndlərində, Laçın şəhərində qanunsuz yaşayan ermənilərə həmin əraziləri boşalmaq üçün avqustun 25-nə kimi vaxt verib.

# Dövlət qulluğuna qəbul imtahanı keçiriləcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il avqustun 21-də dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğuna qəbul olmaq üçün test imtahanı keçiriləcək.***



DİM-dən "Unikal"a verilən məlumata görə, imtahan bütün binalarda eyni vaxtda - saat 10:00-da başlanır və 3 saat davam edir. Saat 09:45-dən sonra gələn namizədlər imtahana buraxılmırlar.

İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır. İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Namizədin yaddaş kitabçası" da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Namizədlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

şəxsiyyəti təsdiq edən sənədin əsli;

"İmtahana buraxılış vərəqəsi".

İmtahan kağız daşıyıcılar vasitəsilə Bakıda 8 binada təşkil olunacaq. İmtahanda iştirak etmək üçün BA qrupu üzrə 619, BB qrupu üzrə 1463 olmaqla, ümumilikdə 2082 namizəd qeydiyyatdan keçib. İmtahanının keçirilməsi üçün 8 ümumi imtahan rəhbəri, 24 imtahan rəhbəri, 186 nəzarətçi müəllim, 16 buraxılış rejimi əməkdaşı ayrılıb.

# Rayonlarda mexaniki üsulla suvarma davam edir



***Ağdamda mexaniki üsulla suvarma davam edir, rayonda 10 ədəd subartezian quyusu qazılır.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Ağdam rayonunda son illər mexaniki üsulla suvarma, o cümlədən meliorativ tədbirlər uğurla yerinə yetirilir. 36000 hektardan artıq kənd təsərrüfatı bitkilərinin suvarılması və 83000 nəfərə yaxın rayon sakininin içməli-məişət suyuna olan talabatını hayata keçirən Ağdam Mexaniki Suvarma İdarəsində mövsümə uyğun olaraq işlər davam edir. Bu xidmətlərin aparılması üçün idarənin balansında olan 986 subartezian quyusu, 4 nasos stansiya, 4 su yığıcı göl, 11 kəhriz və qaynamalar, 365 km suvarma kanalları, 236 hidrotexniki qurğu mövcuddur. İdarə tərəfindən müasir standartlara uyğun olaraq 102 subartezian quyusunda Scada sistemi quraşdırılıb, 238 subartezian quyusunda isə quraşdırılması nəzərdə tutulub. Bundan başqa balansda olan subartezian quyularına baxış keçirilərək nasaz olan dərinlik nasosları dəyişdirilib.

Rayon ərazisində əkin aparan fermerlərin və su istifadəçilərinin tələbatını ödəyən Ağdam Mexaniki Suvarma İdarəsi daimi olaraq subartezian quyularının işlək vəziyyətdə olmasına diqqət yetirir. İdarənin tabeliyində olan emalatxanada işçi heyəti tərəfindən nasosların sazlığı yoxlanılır və təmir prosesi həyata keçirilir. Hər il mütəmadi olaraq yeni subartezian quyularının qazıldığı Ağdam rayonunda bu il də 10 ədəd quyunun qazılması nəzərdə tutulub və artıq bu işləri icrası yekunlaşır.

Ağdam Mexaniki Suvarma İdarəsi balansında olan suvarma kanallarında da lildən təmizləmə işlərini ilin əvvəlindən etibarən davam etdirir. Hazırda idarənin texnikaları bir-neçə istiqamətdə kanalları lildən təmizləyir. Nəticədə suvarma kanalları ilə sahələrə ötürülən suyun maneəsiz axını təmin olunur.

Abseron magistral kanalında təmizlik işləri aparılır. Dilqəm Şərifov bildirib ki, son illər Abşeronda kənd təsərrüfatının inkişafı istiqamətində xeyli işlər görülüb. Hər il artan meyvə bağlarının və digər kənd təsərrüfatı bitkilərinin suvarılması Abşeron Suvarma Sistemləri İdarəsi tərəfindən fasiləsiz olaraq yerinə yetirilir. Hazırda idarənin texnikaları vasitəsi ilə suvarmada önəmli yerə malik olan Abşeron magistral kanalında lildən və yosunlardan təmizləmə işləri həyata keçirilir. Kanalın uzunluğu ümumilikdə 103 km təşkil edir. Abşeron Magistral Kanalında və paylayıcı beton üzlüklü kanallarda 13 min kvadrat metr sahə əl ilə kol-kosdan, 70 min kub metr sahə isə lildən təmizlənib. Bundan başqa magistral kanalın ətrafı və içərisi məişət tullantıları və yad cisimlərdən təmizlənərək kənar ərazilərə daşınıb.

Abşeron Suvrama Sistemləri İdarəsi bu ilin əvvəlindən suvarma mövsümünə hazırlıq və suvarmanın gedişi dövründə balansda olan nasos stansiyalarında 23 ədəd aqreqatın mexaniki və elektrik avadanlıqlarında cari təmir işlərini apararaq saz vəziyyətə gətirib. Bu işlər çərçivəsində Zabrat nasos stansiyasında istismara yararsız 2 ədəd OV tipli şaquli nasos aqreqatı yeni müasir nasoslarla əvəzlənib. Zabrat-1 nasos stansiyasında isə 1 ədəd yeni tipli aqreqat quraşdırılaraq istifadəyə verilib. Bununla yanaşı həcmi 400 kub metr olan su anbarında əl ilə 334 kub metr lildən və çöküntülərdən təmizləmə işləri yerinə yetirilib.

Qeyd edək ki, idarə tərəfindən meliorativ tədbirlər çərçivəsində əkin sahələrini və heyvandarlıq təsərrüfatlarını suvarma suyu ilə təmin edən müxtəlif diametrli boru xətlərinin qəzalı hissələri təmir edilərək istismara yararlı vəziyyətə gətirilib. Onu da qeyd edək ki, Abşeron Suvarma Sistemləri İdarəsi tərəfindən hədəf olaraq gələcəkdə suvarılan torpaqların sahəsinin 22 min hektara çatdırılması planlaşdırılır.

***Hüseyn İsgəndərov***

# Bərdədə fermerlərə təlim keçirildi

***Bərdə rayonunda "Pambıqda boy tənzimləyici hormonların tətbiqi, həmçinin məhsulun yığıma hazırlanması üçün defolyasiya və desikasiya aparılma qaydaları" mövzusunda fermerlər üçün təlim keçirilib.***



"Unikal" xəbər verir ki, Bərdə rayonunun Yenidaşkənd kəndində fermer Ədalət Əliyevə məxsus pambıq tarlasında keçirilən təlimdə Aqrar Xidmətlər Agentliyinin Bərdə Regional Təlim Mərkəzinin əməkdaşları, fermerlər və aqrar mütəxəssislər iştirak ediblər.

Təlimçilər qeyd ediblər ki, pambıq bitkisində 3-4 ədəd formalaşmış qoza, 15-17 ədəd simpodial budaq olduqda ucvurma aparılmalıdır. Bildirilib ki, ucvurma və yaxud boy tənzimləyici hormonların tətbiqi kolun formalaşmasına, bar orqanlarının toplanmasına və əmələ gəlməsinə təsir edən ən əsas tədbirlərdən biri sayılır. Ucvurma pambıq kollarına xüsusi forma verməklə, məhsulun maşınla yığılmasını asanlaşdırır.

Mütəxəssislər əlavə ediblər ki, məhsulu itkisiz və qısa zamanda yığmaq üçün pambıq əkinləri defolyasiya və desikasiya edilməlidir. Yığım qabağı qozaların kütləvi açılmasını təmin etmək və yarpaqların yaşıl rəngdə tökülməsi üçün defolyasiya olunur. Defolyasiyanın səmərəliliyi işlənəcək preparatın təsir dərəcəsindən, bitkinin vəziyyətindən, aqrotexniki zəmindən, ətraf temperaturdan, torpaq və havanın nəmliyindən, torpağın münbitliyindən, qidalanma rejimindən və digər amillərdən asılıdır. Desikasiya prosesi isə bitkinin gövdə və yarpaqlarının birlikdə tam qurudulmasıdır.

Təlimin sonunda fermerləri maraqlandıran suallar ətraflı cavablandırılıb və onlara müvafiq tövsiyələr verilib.



# Vətənin qəhraman oğlu

***Nurəddin Hasil oğlu Məstəliyevin şəhidliyi də Vətən sevgisindən başlandı. Əslən Yardımlı rayonunun Ökü kəndindən olan, Bakı şəhəri, Qaradağ rayonu, Qızıldaş qəsəbəsində dünyaya göz açmış bu ər igid İkinci Qarabağ müharibəsində misilsiz qəhrəmanlıq örnəyi göstərir. Nurəddin lap cavan yaşında, ömrünün 20-ci baharında bu dünyadan köçsə də, ürəkdən bağlandığı xalqına zəfər sevinci yaşadan qəhrəman oğullardan olur. Adı milyonların dilində dastana dönən bu Vətən sevdalısı həm də dövlət tərəfindən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülür.***

Vətənini canından əziz tutmaqla ölməzliyə qovuşan Nurəddin Məstəliyev Azər Namazov adına 180 saylı orta məktəbdə oxuduğu zaman, yəni kisik yaşdan idman həvəs göstərir. Bir çox turnirlərə qatılır, dəfələrlə rəqiblərinə qalib gəlib mükafatlar, sertifikatlar, medallar alır.

İdman məşğuliyyətini peşəkar səviyyəyə çatdıran Nurəddin Karatenin Goju-ryu növü üzrə 80 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək Respublika Birincisi olur. Bundan sonra idman uğurları bir-birini əvəz edir. Bir sıra səviyyəli yarışlara qatılır, yüksək yerləri tutmaqla tanınır, sevilir.

13 Mart 2016-cı ildə Azərbaycan Qocyu-Ryu Okinava Karate-Do və Kobudo Növləri Federasiyasının 20 illiyinə həsr olunmuş XIX Açıq Bakı çempionatınında I yerə layiq görülür. Heydər Əliyevin 93-cü ildönümünə həsr olunan XIX Açıq Respublika Kuboku İRİQUMİ-CYUQO döyüş qaydaları üzrə II yeri tutur.17 İyul 2016-cı ildə Azərbaycan Qocyu-Ryu Okinava Karate-Do və Kobudo Növləri Federasiyası yeniyetmələr və Gənclər arasında Bakı Şəhər Açıq Turniri III yeri qazanır. Azərbaycan Qocyu-Ryu Okinava Karate-Do və Kobudo Növləri Federasiyası və Juqo Kobute və Kempo-Ryu Federasiyasının böyüklər, gənclər və yeniyetmələr arasında XIX Açıq Respublika Çempionatda İRİQUMİ-CYUQO döyüş qaydaları üzrə dərəcəsində bacarıq göstərərək yarışın III olur.

İdman uğurları ilə respublikada ad qazanan Nurəddin 2016-cı ildə orta məktəbi bitirdikdən sonra 8 saylı texniki peşə liseyində qaynaqçı peşəsi üzrə ixtisaslaşır. Buranı başa vurub doğma Azərbaycanın müdafiəsinə yola düşür. 2020-ci ilin sentyabr ayına qədər Dövlət Sərhəd Xidmətində Vətənə göstərdiyi sədaqət onu əsgərlərin, zabitlərin gözündə ucaldır. Peşəkar idmançı olduğu üçün kəşfiyyat bölüyünə qoşulur.

Sentyabrın 27-də Vətən müharibəsi başlanan andan yağı düşmənlə ağır döyüşə girir. Cəbrayıl və Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edir. Yüngül yaralansa da, şücaətindən qalmır. Şuşada düşmən snayperinin gülləsinə tuş gəlir, Aldığı xəsarətdən yerindəcə şəhidlik zirvəsinə ucalır. Şəhid 13 noyabr 2020-ci ildə valideynləri ilə yaşadığı Qızıldaş qəsəbəsinə gətirilir, burada torpağa tapşırılır.

Beləcə, öz qanı ilə Azərbaycanın yeni şanlı tarixini yazan oğlanlardan biri də Nurəddin Məstəliyev olur.

***Zəfər Orucoğlu, AJB üzvü***

# "Putin və Zelenski yaxın vaxtlarda görüşə bilər" - KİV



***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ukraynalı həmkarı Volodimir Zelenskiyə Rusiya prezidenti Vladimir Putinlə görüş təşkil etməyi təklif edə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə məlumat Türkiyə KİV-lərində dərc olunub. Qeyd olunub ki, diplomatik mənbələrə istinadən verilən məlumata görə, Rusiya və Ukrayna prezidentləri bölgədəki böhranın həlli üçün yol xəritəsini razılaşdırmaq üçün yaxın vaxtlarda görüşə bilər.

Onu da deyək ki, bu gün Ukraynanın Lvov şəhərində Ərdoğan, Zelenski və BMT-nin baş katibi Antonio Quterreş görüşəcəklər.

***Ağarza Elçinoğlu***

# "Əsgərlərinizi dərhal ölkədən çıxarın" - Əsəddən ABŞ-a xəbərdarlıq



***Suriya hökuməti Amerika əsgərlərinin yerləşdiyi bazanın yaxınlığında raket hücumuna məruz qaldıqdan cəmi bir gün sonra Birləşmiş Ştatlardan "hərbi qüvvələrini dərhal və qeyd-şərtsiz ölkədən çıxarmağı" tələb edib.***

"Unikal" xəbər verir ki, ABŞ-ın Suriyada, əsasən, ölkənin cənubundakı Ət-Tanf bazası ilə şərqindəki neft yataqları arasında 900-ə yaxın əsgəri var. ABŞ uzun müddətdir İŞİD-ə qarşı mübarizədə SDQ-yə dəstəyi ilə tanınır. Lakin Suriya prezidenti Bəşər Əsəd administrasiyası ABŞ-ın bu ölkədə mövcudluğunu qeyri-qanuni qəbul etməklə yanaşı, onların ölkəni tərk etmələrini də tələb edib.

Oxşar bəyanatlar Suriya Xarici İşlər Nazirliyinin bəyanatında da yer alıb. Ötən gün yayımlanan mesajda "Amerika tərəfi Suriya torpaqlarından qeyri-qanuni olaraq hərbi qüvvələrini dərhal və qeyd-şərtsiz çıxarmalı, Suriya nefti və buğdasının oğurlanması və qaçaqmalçılığına son qoymalıdır. O, qeyri-qanuni silahlı qruplaşmalara dəstək verməməlidir", - qeyd olunub.

***Gülayə Mecid***

# ABŞ Lavrova BMT-də iştirak üçün viza vermədi

***"Amerika Birləşmiş Ştatları BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında keçiriləcək tədbirlərdə iştirak edənlərə vizaların verilməsində xüsusi məsuliyyət daşıdığını başa düşür".***

"Unikal" xəbər verir ki, bunu Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Ned Prays, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun BMT Baş Assambleyasının sentyabrda keçiriləcək növbəti sessiyasında iştirak planlarını şərh edərkən deyib.

Prays ABŞ-ın rusiyalı nazirə və onun nümayəndə heyətinin üzvlərinə viza verəcəyini açıq şəkildə təsdiqləməyib.

Həmçinin, mətbuat katibi daha əvvəl viza məsələlərini müzakirə etmək üçün Dövlət Departamentinə səfər etmək niyyətində olduğunu bildirən Rusiyanın ABŞ-dakı səfiri Anatoli Antonovun bəyanatını da şərh etməyib.

# Əfqanıstanda məsciddə partlayış - 21 ÖLÜ

***Əfqanıstanın paytaxtı Kabildə axşam namazı zamanı məsciddə törədilən partlayış nəticəsində azı 21 nəfər ölüb.***

"Unikal" "Əl-Cəzirə"yə istinadən xəbər verir ki, hadisə zamanı beşi uşaq olmaqla 33 nəfər yaralanıb.

"Dünən məsciddə axşam namazı vaxtı partlayış baş verib. Nəticədə 21 vətəndaşımız şəhid olub, 33 nəfər yaralanıb", - deyə Kabil polisinin sözçüsü Xalid Zadran bildirib.

***Ağarza Elçinoğlu***

# İrəvandakı partlayışda Rusiya izi? - Paşinyan "oda düşüb"

***Ermənistanın paytaxtı İrəvandakı "Surmalu" ticarət mərkəzində 16 nəfərin ölümü, 62 nəfərin xəsarət alması ilə nəticələnən partlayış Moskva ilə İrəvanı üz-üzə qoyub. Müxalifət funksionerlərinin "Surmalu" faciəsinin Rusiya tərəfindən törədilməsi barədə açıqlamaları Moskvanı hiddətləndirib. Rusiya tərəfi buna cavab olaraq, İrəvandakı səfirlik vasitəsilə Ermənistan Xarici İşlər Nazirliyinə (XİN) etiraz notası göndərib.***




İrəvandakı partlayışda Rusiyanın izinin olması haqda versiyaların ortaya atılması təsadüfi deyil. Bəzi ekspertlər hesab edirlər ki, Baş nazir Nikol Paşinyanın rəqibləri onu Rusiyanın caynaqları arasına buraxmaq istəyir. Belə iddiaların ortaya atılması hökumət rəhbərini "vurmaq" məqsədi daşıyır.

Əslində nə baş verir? "Surmalu" olayında kimlərin əli var?

Bu barədə Modern.az-a danışan politoloq İlqar Vəlizadə bildirib ki, hansısa hadisədə öz günahını başqasının üzərinə yıxmaq ermənilərin köhnə adətidir: "Onlar məsələyə elə yanaşırlar ki, guya ermənilərdən başqa hamı günahkardır. Hadisə baş verən yerdə partlayıcı maddələri bir yerə yığıblar. Çox güman ki, isti havada təhlükəsizlik qaydalarını da gözləməyiblər. Nəticədə, belə olay baş verib. Mən bu məsələyə, ümumiyyətlə, başqa aspektdən yanaşmaq istərdim.Yəni mən gördüm ki, Ermənistanda Fövqəladə Hallar Nazirliyi sistemi yoxdur. Çünki, iki gün ərzində bu ölkənin Fövqəladə Hallar Nazirliyi yanğını söndürə bilmirdi. Digər yandan biz informasiyalara baxanda orada fəsadları aradan qaldırmaq üçün FHN əməkdaşları ilə yanaşı könüllülərin də çalışdığını görürük. Görün vəziyyət nə yerdədir ki, paytaxtın mərkəzində böyük ticarət mərkəzi yanır, ancaq onu söndürmək üçün şəxsi heyət yetmir, könüllülər işə cəlb olunur. Onu da qeyd edim ki, belə texnogen hadisələrin aradan qaldırılması üçün həm də mülki müdafiə sistemi olmalıdır. Lakin Ermənistanda vəziyyət bərbaddır".

Ermənistandakı problemlərdən söz açan politoloq müxalifətin mövcud vəziyyətdən yararlanmağa çalışdığını düşünür: "Köçəryan-Sarkisyan tandemi və onların adamları ortalığa müxtəlif versiyalar atırlar ki, guya burada Rusiyanın izi var. Bununla cəmiyyətdə anti-Rusiya əhval-ruhiyyəsini möhkəmləndirib, onu Paşinyanın boynuna yıxmaq istəyirlər. Göstərməyə çalışırlar ki, baxın, Paşinyanın siyasəti Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsini artırır. Bununla da, Rusiyanı oyuna cəlb etmək istəyirlər. Ümumiyyətlə, onlar hər bir işə Rusiyanı cəlb edirlər. Buna misal olaraq Azərbaycanla sərhəddə olan prosesləri, Laçındakı dəhlizlə bağlı məsələləri, Qarabağda yaranan süni gərginliyi göstərmək olar. İndi də ticarət mərkəzi partlayıb, ona da Rusiyanı qatmaq istəyirlər".

İlqar Vəlizadə hesab edir ki, əslində başlıca səbəb Ermənistanın müstəqil siyasət yeridə bilməməsindən qaynaqlanır: "Ermənistan 30 ildir mövcud olmasına baxmayaraq, özü heç bir məsələni həll edə bilməyib. Hər dəfə kiməsə üz tutur, kiminsə əli ilə nəsə iş tutmaq istəyir. Bu, artıq vərdiş halına çevirilib. Yəni özləri-özlərinə arxayın deyillər. Buna görə də, xarici iz axtarırlar, xaricdən imdad dilənirlər. Rusiyanın əli ilə nəinki Azərbaycanla olan problemlərini, hətta öz daxili problemlərini də həll etmək istəyirlər. Bu, ölkənin müstəqil olmadığını bir daha göstərir.

Qeyd etmək lazımdır ki, Rusiya kartı hazırda müxalifət üçün daha sərfəlidir. Bu kartdan istifadə etməklə onlar Paşinyan ilə Rusiya arasında olan gərginliyi daha da möhkəmləndirmək, payızda yenidən anti-Paşinyan mitinqlərinə başlamaq istəyirlər".

# Ukrayna bu ölkədən 450 milyon dollar kredit alıb

***Kanadadan Ukraynanın Dövlət Büdcəsinə güzəştli şərtlərlə 450 milyon Kanada dolları krediti verilib. Vəsaitlər BVF-nin inzibati hesab mexanizmi vasitəsilə təmin edilib.***



"Unikal" arici KİV-ə istinadən xəbər verir ki, bu barədə ölkənin Maliyyə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

"Bizim üçün son dərəcə çətin olan bu tarixi dövrdə Ukraynaya göstərdiyi güzəştsiz dəstəyə görə Kanada hökumətinə minnətdaram. Alınan vəsait bizə Ukrayna əhalisini dəstəkləməyə və təcavüzkar üzərində qələbəni yaxınlaşdırmağa imkan verəcək", - deyə maliyyə naziri Serhi Marçenko bildirib.

Kanadadan kreditin ümumi məbləği 1,45 milyard Kanada dollarıdır (1,2 milyard ABŞ dollarına ekvivalentdir). Ödəniş müddəti 10 il, faiz dərəcəsi illik 1,69% təşkil edir.

# "Qarabağ"dan Azərbaycana növbəti xal - UEFA reytinqi

***Çempionlar Liqasının pley-off mərhələsinin ilk oyunlarından sonra UEFA reytinqi açıqlanıb.***



Yeni reytinqdə Azərbaycan hesabına növbəti xalları yazdırıb. Buna ”Qarabağ”ın dünən ÇL-in pley-off mərhələsinin ilk oyununda “Viktoriya” (Plzen) ilə qolsuz bərabərə qalması səbəb olub. Bu nəticə ilə xal ehtiyatını daha 0,125 artıran ölkəmiz bu mövsüm üzrə xal sayını 2.000-ə, son 5 mövsümdə isə 14,625-ə çatdırıb. Azərbaycan hazırda reytinq siyahısında 29-cu pillədə qərarlaşıb. 28-ci yerdəki Polşanın 15,875 xalı var.

Qeyd edək ki, siyahıya 88,855 xalla İngiltərə başçılıq edir.

# Boksçumuz Avropa birinciliyində finala yüksəldi




***Türkiyənin Ərzurum şəhərində məktəbli oğlan və qız boksçular arasında Avropa birinciliyində 1/4 final mərhələsi başa çatıb.***

Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, 28 ölkədən 378 idmançının qatıldığı yarışda Azərbaycan millisinin daha iki idmançısı yarımfinalda iştirak hüququ qazanıb.

Yığma üzvü Sübhan Babayev (44 kq) Emanuel Kioabadan (Rumınıya) sonra gürcüstanlı Tsotne Muntçavadan da güclü olub. O, bu görüşü vaxtından əvvəl hesabına yazıb. Boksçumuz ikinci raundda tam üstünlüklə qələbə qazanıb. Bununla özü üçün ən azı bürünc medalı təmin edən Babayev 1/2 finalda Georgi Ralfla (İngiltərə) üz-üzə gələcək.

Bağır Əlimxanlı (46 kq) Oskaras Pliauqanı (Litva) mübarizədən kənarlaşdırdıqdan sonra 1/4 finalda ukraynalı Starik İllya ilə qarşılaşıb. O, rəqibini 5:0 (30:27, 30:27, 29:28, 29:28, 29:28) hesabı ilə məğlub edib. Artıq özü üçün bürünc medalı təmin edən Əlimxanlı yarımfinalda Mixael Xamesi (İngiltərə) sınağa çəkəcək.

Əli Məmişov (70 kq) isə adını finala yazdırıb. Orestas Staponkus (Litva) və Niko Qoretaya (Xorvatiya) qalib gələn idmançı yarımfinalda yunanıstanlı Nikalaos Bliatzeni də məğlub edib. Təmsilçimiz 3:2 (28:29, 29:28, 29:28, 29:28, 27:30) hesablı qələbə sayəsində həlledici görüşə yüksəlib. O, çempionluq uğrunda Giorgi Biqvava (Gürcüstan) ilə qüvvəsini sınayacaq.

Onlardan fərqli, Kənan Aslanlı (60 kq) və İsmayıl Vəliyev (63 kq) medalın bir addımlığında büdrəyib.

Qeyd edək ki, daha öncə Banuçiçək Nəsirli (44 kq) də Avropa birinciliyinin yarımfinalında iştirak hüququ qazanıb. Birincilikdə qaliblər avqustun 20-də bəlli olacaq.

# "Qol şanslarından yararlana bilmədik" - Qurban Qurbanov

***”Ağır oyun oldu. Rəqib necə gözləyirdiksə, elə də çıxış etdi. Çox yaxşı qol imkanlarımız var idi. Amma yararlana bilmədik”.***



”Unikal” xəbər verir ki, bu fikirləri ”Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov Bakıda Çexiyanın ”Viktoriya” (Plzen) komandası ilə qolsuz heç-heçə etdikləri UEFA Çempionlar Liqasının pley-off mərhələsinin ilk oyunundan sonra ”CBC Sport”a açıqlamasında deyib.

50 yaşlı mütəxəssis müdafiədən oynayan kollektivə qarşı mübarizə apardıqlarını bildirib: ”Həm rəqibdə, həm də bizdə həyəcan hiss olunurdu. Oyunçular çox əziyyət çəkdilər. Cavan görüşündə bundan da artıq güc itirməliyik. Şanslarımız bərabərdir. Böyük inamla səfərə gedəcəyik”.

Qurbanov futbolda aqressiyanın çoxaldığını söyləyib: ”Səbrli olmalıyıq. Futbolçulara da bunu tapşırmışam. Səbrlə oyunumuzu başa vurduq. Azarkeşlərimiz yenə möhtəşəm idilər. Hər birinə təşəkkür edirəm. Bir həftə sonra onları sevindirməyə çalışacağıq”.

Qeyd edək ki, avqustun 23-də Plzendəki ”Dusan Arena”da oynanılacaq cavab matçı Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# “Neftçi”nin sabiq futbolçusu tarixin rəmzi komandasında

***Özbəkistan futbol tarixinin rəmzi komandası açıqlanıb.***




Apasport.az saytının məlumatına görə, bu “11-liy”i Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) müəyyənləşdirib.

Simvolik komandaya “Neftçi”nin sabiq müdafiəçisi Mustafa Bilalov da düşüb. 65 yaşlı veteran oyunçu 1985-1987-ci illərdə Bakı klubunun heyətində 83 oyun keçirib, 2 qol vurub.

Simvolik komanda:

Qapıçı: Yuri Pşeniçnikov;

Müdafiəçilər: Sergey Dotsenko, Vladimir Stern, Mustafa Bilalov, Gennadi Denisov;

Yarımmüdafiəçilər: Mircalal Qasımov, Mixail An, Berador Abdurahmov;

Hücumçular: Stanislav Stadnik, Gennadi Krasnitski, Vladimir Fyodorov.

# "Viktoriya"da ciddi itki



***”Viktoriya”nın (Plzen, Çexiya) kapitanı Lukaş Heyda Çempionlar Liqasının pley-off mərhələsində ”Qarabağ”la cavab oyununu buraxacaq.***

Qol.az xəbər verir ki, buna səbəb onun Ağdam təmsilçisi ilə ilk matçda (0:0) sarı vərəqə alaraq cəzalı duruma düşməsidir.

Qeyd edək ki, bu komandalar arasında avqustun 23-ü Çexiyada keçiriləcək cavab görüşü Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# PSJ-dən futbolçulara qadağa

***PSJ-nin idman direktoru Luiş Kampuş Parisin əsas komandasına dietoloq götürüb.***



Qol.az xəbər verir ki, bu barədə ”Le Parisien” məlumat yayıb. Komandanın dietoloqunun ilk qərarı futbolçulara Coca-Cola və buzlu çaydan istifadəni qadağ etmək olub. Şəkərli içkilər komanda yeməklərindən çıxarılıb. Bildirilib ki, PSJ futbolçuları hər gün bazada səhər yeməyi və naharı birlikdə yeyirlər.

Qeyd edək ki, Coca-Cola 22 ildir ki, PSJ-nin rəsmi tərəfdaşıdır və ötən il sponsorluq müqaviləsi 2024-cü ilə qədər uzadılıb.

# "Liverpul" Keyta ilə bağlı qərarını verdi

***”Liverpul” futbolçusu Nabi Keytanın gələcəyi ilə bağlı qərar verib.***

Qol.az goal.com-a istinadən xəbər verir ki, Mersisayd təmsilçisi qvineyalı yarımmüdafiəçi ilə gələn ilin yayında başa çatacaq müqaviləni uzatmaq qərarına gəlib.

Qeyd edək ki, Keyta 2018-ci ildən ”Liverpul”da çıxış edir. O, indiyə kimi 117 matçda iştirak edib, 11 qol vurub və 7 qolun ötürməsini verib.

# “Zirə”də yeni 2 illik müqavilə

***“Zirə”də daha bir futbolçunun taleyinə aydınlıq gəlib.***

“Unikal”ın klubun rəsmi saytına istinadən məlumatına görə, müdafiəçi Dimitrios Çantakiasla müqavilənin müddətini artırılıb.

27 yaşlı futbolçu ilə yeni 2 illik sözləşmə imzalanıb. Yunanıstanlı müdafiəçi ilə müqavilənin müddəti 2024-cü ilin yayına qədər nəzərdə tutulub. Qeyd edək ki, Çantakias 2020-ci ildən “Zirə”nin şərəfini qoruyur.